HƏYAT BİLGİSİ

DƏRSLİK

6

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA

HƏYAT BİLGİSİ

6

Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Həyat bilgisi fənni üzrə
DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

MÜNDƏRİCAT

I. Mənim mənəvi aləmim

1. Ünsiyyət mədəniyyəti 8
2. Hər yerdə düzgün davranaq 12
3. Ailə və Vətən qarşısında mənəvi borcumuz 16
4. Dini ibadətlər və mərasimlər 22

II. Dövlətimə arxalanıram

5. Dövlətdə idarəçilik 26
6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları 29
7. Hüquqlarımızı qoruyanlar 32
8. İqtisadi inkişaf 36

III. Cansızdan canlıya

9. Maddələrin xassələri 40
10. Maddələrin tərkibi 42
11. Elementlər 44
12. Bir maddədən yeni maddə alına bilərmi? 46
13. Saf maddələr və qarışıqlar 48
14. Qeyri-üzvi və üzvi maddələr 50
15. Üzvi maddədən canlıya 52
16. İnsan – təbiətin ali varlığı 55

IV. Təhlükəsiz həyat

17. Sağlamlığın şərtləri 58
18. Gigiyena sağlamlığın şərtidir 62
19. Yoluxucu xəstəliklərdən qorunaq 66
20. Təhlükəsizliyimizi təmin edək 69
21. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq 73
22. Texnogen mənşəli qəzalardan qorunaq 81
23. Yol nişanlarına diqqət edək 84

A

Mövzu ilə tanışlıq məqsədilə ümumi dünyagörüşü, öncədən əldə etdiyiniz bilik və məlumatlarınızı təkrarlamaq imkanı yaradır. Sizi dərsdə fəallaşdırır.

Artıq sizin dövlət haqqında müəyyən məlumatınız var. Məlumdur ki, dövlət cəmiyyətin həyatında mühüm rol oynayır. Gəlin araşdıraq: dövləti digər siyasi təşkilatlardan fərqləndirən cəhətlər hansılardır?

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

Heydər Əliyev

Dövlətin idarə olunmasında müxtəlif insanlar iştirak edirlər. Onlar dövlətin idarə olunmasını dövlət orqanları, müəssisə və təşkilatlar vasitəsilə həyata keçirirlər. Dövlətin məqsədi onun funksiyalarında əks olunur.

C

Yeni biliklər:

Mövzunun əsas məzmununu əhatə edir. Burada mövzu ilə bağlı izahlar, anlayışlar, tərifl ər və s. verilir.

B

Bu işarə altında verilmiş sual və tapşırıqlar şagirdləri fəaliyyətə cəlb etmək üçündür.

1. Kartofu kəsib, onun üzərinə bir neçə damcı yod tökək

2. Kağızı yandıraq



E

Maraqlı məlumatlar:

Mövzu ilə bağlı statistik məlumatlar, maraqlı faktlar, görkəmli şəxsiyyətlərin qiymətli kəlamları verilmişdir.

Ölkə iqtisadiyyatının inkişafında neftin və qazın nə kimi rolu vardır?



Kristal maddənin suda həll olması*

* Kristal – yunanca “buz” və ya “dağ bülluru” mənasını verir.

Dərslikdə istifadə olunan terminlərin izahı. ✻

Sxemlər: Mövzu ilə bağlı bəzi məlumatlar verilir. D

Suallar və tapşırıqlar: Verilmiş sualların bəzisi mövzu ilə bağlı araşdırma aparıb əlavə məlumatlar əldə etməyə imkan yaradır. Sizi tədqiqatçılığa yönəldir. Bir qisim suallar öyrəndiklərinizi yoxlamaq məqsədilə verilmişdir. F

Eyni atomlardan təşkil olunan maddələrin molekulları

- azot
- oksigen
- hidrogen
- xlor

Müxtəlif atomlardan təşkil olunan maddələrin molekulları

- su
- karbon qazı
- zülal
- nişasta

Suallar və tapşırıqlar:

1. Atomları nə üçün “bölünməz” adlandırırlar?
2. Xörək duzunu xörəyə əlavə etdikdə nə baş verər? Səbəbini izah edin.
3. Əgər maddələr müxtəlif atomlardan yox, yalnız eyni atomlardan təşkil olunsa idi, onda təbiətdəki maddələrin sayı dəyişərdimi? Nə üçün?
4. İki qazın birləşməsindən yaranan maye halında maddə yazın.

I. MƏNİM MƏNƏVİ ALƏMİM

1. Ünsiyyət mədəniyyəti
2. Hər yerdə düzgün davranaq
3. Ailə və Vətən qarşısında mənəvi borcumuz
4. Dini ibadət və mərasimlər

1. Ünsiyyət mədəniyyəti

Yeni dərs iliniz başlandı. Müəllimləriniz, sinif yoldaşlarınız və dostlarınızla görüşüb söhbətləşirsiniz. Kiminsə dedikləri xoşunuza gəlir, kiminki isə yox... Bəzən fikirləşirsiniz: mən nə etdim ki, o məndən incidi? Ünsiyyətin düzgün qurulmamasına səbəb nə oldu?

Ünsiyyət insanlar arasında fikirlərin ötürülməsi və qəbuludur. Şəxsiyyətin xarakteri məhz ünsiyyət prosesində formalaşır. Bu zaman biz özümüzü və ətrafımızdakıları öyrənir, həm də öz əməllərimizi qiymətləndiririk. İnsanın heç kimlə ünsiyyət qurmaması, tənhalığı onun həm əhvali-ruhiyyəsində, həm də xarakterində dəyişiklik yaradır. Ona görə də hər bir insanın ailə üzvləri, dostları, yoldaşları və ətrafındakı digər insanlarla ünsiyyət qurması böyük əhəmiyyət kəsb edir.

Ünsiyyət zamanı ziddiyyətlərin yaranma səbəbləri nədir?

Ünsiyyət düzgün qurulmadıqda çox vaxt münaqişələr baş verir. ***Münaqişə*** – ayrı-ayrı şəxslərin və yaxud sosial qrupların maraqlarının, dünyagö-

rüşlərinin toqquşmasıdır. Sinif yoldaşlarınız, ailə üzvləriniz, dostlarınız və digər insanlarla münaqişələrdən (konfliktdən) qaçmağa çalışın. Alman filosoflarından biri bu haqda belə söyləmişdir: "Konfliktli vəziyyət yaranıbsa və sən heç cür qarşındakı insana onun səhv olduğunu sübut edə bilmirsənsə, "mən öz fikrimdə qalıram, sən də öz fikrində qal" demək ən sadə üsuldur". Bəs ünsiyyətin düzgün qurulmamasına səbəb nədir?

Ünsiyyətin düzgün qurulmamasının səbəbləri:

- *ünsiyyətdə olan insanların əsəbi, səbirsiz, aqressiv, ya da eqoist, hövsələsiz, tamahkar, lovğa, yalançı və nəzakətsiz olmaları;*
- *ünsiyyət qaydalarına əməl edilməməsi;*
- *fikirlərin, mülahizələrin ətrafdakılar tərəfindən düzgün dərk olunmaması;*
- *fikirayrılığı və s.*

Psixoloqların fikrincə, ünsiyyət qurarkən yaranan çətinlikləri aradan qaldırmaq üçün insanlarda ünsiyyət vərdişlərini inkişaf etdirmək və ünsiyyət mədəniyyətini artırmaq lazımdır.

İnsanlar arasındakı münaqişələrin əsas səbəblərindən biri emosiyaların düzgün idarə olunmamasıdır. Bir el məsəlində deyilir ki, "hirsli başda ağıl olmaz". Həqiqətən də, hirslənmək heç kimə xeyir gətirmir. Hər birimizin münaqişəli vəziyyətdə əməl etməli olduğumuz müxtəlif davranış formaları vardır. Bunlara *uzaqlaşma, uyğunlaşma, kompromis, əməkdaşlıq* və s. misal göstərmək olar.

Uzaqlaşma – *münaqişəyə fikir verməmək və yaxud çox dərinə getməmək.*

Uyğunlaşma – *tərəflərdən birinin digər tərəfə güzəştə getməsi.*

Kompromis – *hər iki tərəfin müəyyən dərəcədə razılaşması və bir-birinə güzəştə getməsi.*

Əməkdaşlıq – *hər iki tərəfin maraqlarının təmin olunması.*

Yaranmış münaqişələrin həlli zamanı müəyyən qaydalara əməl etmək vacibdir. Bu qaydalar aşağıdakılardır:

- *Münaqişəni yaradan şəxsə qərəzsiz yanaşmalı, səbirli olmalı, qınamadan diqqətlə dinləməli;*
- *Mübahisənin genişlənməsinə yol verməməli. Qarşı tərəfin davranışında onu qane etməyən səbəbləri aydınlaşdırmalı;*
- *Münaqişənin pozitiv (müsbət) həllinə nail olmağa çalışmalı;*

Əsəbiləşdiyiniz zaman:

- *dayanın və düşünün;*
- *10-a qədər sayın və sakitləşin;*
- *nə edə biləcəyinizi fikirləşin;*
- *düzgün çıxış yolunu seçin.*

- *Maksimum dərəcədə sakit və asta danışmalı, səsin tonunda əsəbilik, qəzəb hiss olunmamalı, təhqiredici sözlər işlədilməməlidir;*
- *Nəzakətli olmalı, ehtiyatsız, düşünülməmiş söz işlətməməli, şəxsiyyətə hörmətlə yanaşılmalıdır.*

Unutmayaq ki, sadaladığımız bu qaydalara əməl etsəniz və yoldaşlarınız arasında bu qaydalar barədə təbliğat aparsanız, münaqişəsiz və sakit həyat yaşayarsınız.

İnsanın cəmiyyət tərəfindən qiymətləndirilməsi, qəbul olunması onun ünsiyyətindən çox asılıdır. Yuxarıda qeyd etdiyimiz bəndlərə diqqətlə baxsanız, bütün bunların insanın davranışına təsir edə biləcəyini görərsiniz.

Nizami Gəncəvinin aşağıdakı misralarını, yəqin ki, bilirsiniz:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da.

Nizami Gəncəvi hələ neçə əsr bundan əvvəl sözü insanın daxili aləminin əsas meyarı saymışdır.

İstər sinif yoldaşlarınız və ailə üzvləriniz, istərsə də yaşlı nəslin nümayəndələri ilə danışarkən əvvəlcə aşağıdakı suallar ətrafında düşünün: Ona nə deyəcəyəm? Necə deyəcəyəm?

Ünsiyyətdə olduğumuz insanların dinindən, irqindən, milliyyətindən, ümumiyyətlə, kimliyindən asılı olmayaraq, onlarla səmimi və mehriban davranmalı, münaqişələrə yol verməməliyik. Bu bizə yalnız başucalığı gətirər.

Lakin ünsiyyət mədəniyyətinin formalaşmasına təkcə bizim yuxarıda sadaladıqlarımız təsir göstərmir. Eyni zamanda oxuduğumuz ədəbi əsərlər, izlədiyimiz kinofilmlər, teatr tamaşaları, televiziya və radio verilişləri, müxtəlif sosial şəbəkələr insanlarla ünsiyyətimizin düzgün qurulmasını təmin edir.

Sual və tapşırıqlar:

1. Hansı davranış forması münaqişələrin həllini asanlaşdırır?
2. "Şəxsiyyətin xarakteri ünsiyyət prosesində formalaşır" fikrini izah edin.
3. Nihat və Tunar mübahisə edirlər. Sən onları necə sakitləşdirə bilərsən?
4. Münaqişələrin həlli üçün siz hansı yeni qaydalar təklif edə bilərsiniz?
5. Kərim öz topunu dostlarına oynamaq üçün verməmişdi. Bundan qəzəblənən uşaqlar öz aralarında pul toplayıb top aldılar. Ertəsi gün həyətdə oynayarkən onlar Kərimi oyuna buraxmadılar. Sizcə, Kərimin günahı var idimi? Uşaqların ona qarşı etdikləri hərəkəti necə qiymətləndirirsiniz?
6. Aşağıda təqdim olunan hadisələr zamanı düzgün davranış qaydalarını müəyyənləşdirin və dəftərinizə yazın.

Hadisələr	Düzgün davranış qaydaları
Danışarkən sözünüzü kəsdilər.	
Sizdən icazə almadan əşyanızı götürdülər.	
Fikirlərinizə qarşı çıxdılar.	
Kimsə sizi əsəbiləşdirdi.	

7. Heç münaqişə yaratmısınızmı? Belə hal olubsa, onun səbəbi və nəticəsi haqqında kiçik esse yazın.

2. Hər yerdə düzgün davranaq

Əxlaqi keyfiyyət və qaydaları, onların cəmiyyətdə formalaşmasını, rolunu və s. məsələləri etika tədqiq edir. Etika fəlsəfə elminin sahələrindən biri olub, əxlaq haqqında elmdir. Bəs etik qaydalar hansılardır? Biz hansı etik qaydalara əməl edirik?

Tarix boyu ailə, məişət, istehsalat və ictimai həyatın bütün sahələrində insanların əxlaqı onların münasibətlərində özünü büruzə verib. Əxlaqın formalaşması insanı əhatə edən mühitdən asılıdır. Yəni ailə, bağça, məktəb və digər sahələr əxlaqın formalaşmasında mühüm rol oynayır.

Xalqımızın özünəməxsus əxlaq və davranış qaydaları vardır. Ancaq xalqımız üçün xarakterik olan əxlaq və davranış qaydaları ilə yanaşı, bütün xalqların əməl etdikləri əxlaq və davranış normaları mövcuddur. İnsanın cəmiyyətdə könüllü qəbul etdiyi davranış qaydaları *əxlaq qaydalarıdır*. Dövlət tərəfindən qanun halına salınan, icrası məcburi olan, əməl edilmədikdə cəza nəzərdə tutulan normalar isə *hüquq normalarıdır*.

Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.

Abbasqulu ağa Bakıxanov

Əxlaq və hüquq normalarına zidd olan davranışları seçin:

kiməsə təhqiramiz söz demək, oğurluq etmək, fiziki güc tətbiq etmək, doğruçuluq, yardımsevərlik, qeybətcillik, böhtan atmaq, terrorçuluq, insan sağlamlığına və ətraf mühitə ziyan vurmaq, girov götürmək, tarixi mədəniyyət abidələrini korlamaq.

Paxıllıq etmək, yalan danışmaq, böhtan atmaq, satqınlıq, ikiüzlülük, qeybət, qorxaqlıq, iradəsizlik, etibarsızlıq, israfçılıq, tənbəllik, bədgümanlıq kimi zərərli keyfiyyətlər cəmiyyət tərəfindən qəbul edilmir.

Əməksevərlik, insanpərvərlik, sadəlik, təvazökarlıq, halallıq, işgüzarlıq, dostluq, düzlük, doğruçuluq, vətənpərvərlik və s. faydalı keyfiyyətlər hesab olunur. Tarix boyu milli-mənəvi dəyərlərə böyük hörmətlə yanaşan xalqımız əxlaq və davranış qaydaları ilə bağlı nəsihətamiz sözlər işlətmiş və bizi babanənələrimizə, valideynlərimizə, özümüzdən yaşca böyüklərə hörmət etməyə çağırmışdır.

Gəlin hər zaman öz əxlaqımızla ətrafdakılara nümunə olmağa çalışaq. Soruşacaqsınız ki, bəs necə? Hansı qaydalara əməl edək ki, cəmiyyəti, valideynlərimizi narahat etməyək? Bu məqsədlə aşağıdakı qaydalara əməl etməyiniz vacibdir:



Ailədə davranış qaydaları:

- *Valideynlərimizin, bacı-qardaşlarımızın otağına daxil olmaq istəyərkən qapını döyməliyik;*
- *Valideynlərimizin, bacı-qardaşlarımızın əşyalarına icazəsiz toxunmamalıyıq;*
- *Ailədə özümüzdən kiçik bacı və qardaşlarımızı qorumalı, onların qayğısına qalmalıyıq;*
- *Böyüklər içəri daxil olarkən ayağa durmalı, onlara yer göstərməliyik;*
- *Ailəmizin sirlərini heç vaxt heç kimə verməməliyik və s.*

Ailə valideyn və uşaqları özündə birləşdirən bir qurumdur. Ailədəki davranış qaydalarına riayət etmək, valideynlərimizin sözünə baxmaq, dediklərinə, nəsihətlərinə əməl etmək mənəvi borcumuzdur. Çalışaq ki, ailə üzvlərimizin, qonşularımızın və ümumiyyətlə, ətrafdakıların rahatlığını pozmayaq, istirahətinə mane olmayaq. Davranış qaydalarına bu cür əməl olunarsa, ailədə xoş münasibət, əməkdaşlıq, qarşılıqlı hörmət yaranar və nəticədə sağlam ailə həyatı yaşanar.

Məktəbdə davranış qaydaları:

- *Məktəb və onun həyətində qarşılaşdığımız müəllimlərə, xidməti işçilərə, valideynlərə, yoldaşlarımıza salam verməliyik;*
- *Dərsdə müəllimlərin dediklərinə əməl etməli, öyrənməyə çalışmalıyıq;*
- *Yoldaşlarımızın dərs ləvazimatlarından icazəsiz istifadə etməməliyik;*
- *Dərsdə yersiz danışıqlarla sinif yoldaşlarımızın fikrini yayındırmamalı, diqqətini özümüzə cəlb etməməliyik;*
- *Ətrafı zibilləməməli, buna əməl etməyən yoldaşlarımıza da bunu xatırlatmalıyıq, təmizliyə riayət etməyə cəlb etməliyik;*
- *Sinif yoldaşlarımızın uğurlarına sevinməli, onlardan nümunə götürməliyik və s.*

İctimai nəqliyyatda davranış qaydaları:

- *Yaşlılara, qadın və uşaqlara yol verməliyik;*
- *Düşənlərə mane olmamaq üçün qapı ağzında dayanmamalıyıq;*
- *Ucadan danışmamalı və gülməməliyik;*
- *Sürücü və sərnişinlərlə münaqişə yaratmamalıyıq;*
- *Sərnişinlərə mane olmamaq üçün çantanı düzgün tutmalıyıq.*

Cəmiyyətdə davranış qaydaları:

- *Başqalarına etdiyimiz yaxşılıqları onların üzünə vurmamalıyıq;*
- *Başqalarının qüsurlarına rişxənd etməməliyik;*
- *Danışanın sözünü kəsməməliyik;*
- *İnsanların çox olduğu yerdə bir-birinizi itələməməliyik;*
- *Başqalarının dərdinə şərik olmalıyıq;*
- *Başqalarının uğurlarına sevinməliyik və s.*

Ailə də, məktəb də öz vəzifələrini cəmiyyətin tələbləri baxımından qurur. Yuxarıda sadaladığımız qaydalara əməl etmiş olsaq, yoldaşlıq və dostluq əlaqələrimiz daha da möhkəmlənər.

Sual və tapşırıqlar:

1. Müsbət əxlaqi keyfiyyətlər hansılardır?

2. Hansı əxlaqi keyfiyyətlər daha mühüm hesab oluna bilər? Fikrinizi əsaslandırın.

3. Kinoteatrda və gəzintidə əməl olunacaq davranış qaydaları hansılardır? Bu qaydalara əməl etmək nə üçün vacibdir?

4. Sizin hansı davranışınız böyüklər tərəfindən qəbul edilməyə bilər? Səbəbi nədə görürsünüz? Bunu necə aradan qaldırmaq mümkündür?

5. Metroda və muzeydə hansı davranış qaydalarına əməl olunmalıdır?

6. Özünüzün müsbət və mənfi xüsusiyyətlərinizi yazın. Mənfi xüsusiyyətlərinizin ətrafdakılara necə təsir etdiyini və onların aradan qaldırılması yollarını müəyyənləşdirin.

7. Bu gün Fidanın rəfiqəsinin ad günüdür. Ancaq o bunu unutmuşdu. Axşam yadına düşdü ki, rəfiqəsinin ad günüdür. Lakin Fidan təbrik etmək üçün gec olduğunu düşünüb ona zəng etmədi. Sizcə, Fidan düzgün hərəkət etdi? Niyə?

8. Rauf ata və anasına qapını açdı, onları gözləmədən qaçıb televizorun qabağında oturdu. Raufun etdiyi hərəkətə münasibətinizi bildirin. Sizcə, o hansı səhvə yol verdi?

9. Vüsalənin anası iki növbədə çalışır. İşdən gəldikdən sonra o, Vüsələnin və qardaşının tökdüklərini yığışdırır, qabları yuyur, xörək bişirir. Vüsalə isə televizora baxır. Siz Vüsaləyə nə tövsiyə edərdiniz?

10. Verilənlər içərisində düzgün davranış qaydalarını seçin. Bu qaydaların əhəmiyyətini yazın.

Nəqliyyatda kimisə itələmək, dərdə şərik olmaq, qarşındakını dinləmək, fiziki qüsuru üzə vurmamaq, danışanın sözünü kəsmək, böyüklərə yol vermək, uşaqları incitməmək, münaqişə yaratmaq.

Düzgün davranış qaydaları	*Əhəmiyyəti*

3. Ailə və Vətən qarşısında mənəvi borcumuz

Sizcə, əsl vətəndaş kimdir?

Vətəndaş, ilk növbədə, ailədə formalaşır. Valideynlərimiz çalışırlar ki, bizi yüksək əxlaqlı, mənəvi keyfiyyətlərə yiyələnmiş şəxsiyyət kimi yetişdirsinlər. Bunun üçün biz düzgün davranış qaydalarına əməl etməli, savadlı olmalı, vətənin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməliyik. Eyni zamanda biz vicdanlı, mübariz və vətənsevər olmalıyıq.

"Vətənin haradır?" sualına cavab axtararkən dərhal doğulduğumuz məkan ağlımıza gələcək. Ancaq bizim hamımızın bir vətəni var – Azərbaycan. Bəli, bu bizim Azərbaycandır. Azərbaycan uğrunda babalarımız mübarizə aparmış, igidlərimiz qan tökmüşlər. Babalarımızın və igidlərimizin bizə əmanət etdiyi vətənimizi göz bəbəyi kimi qorumalı, daim onun inkişafına çalışmalıyıq. Bu hər bir azərbaycanlının mənəvi borcudur.

Vətən haqqında danışanda onu "Ana vətən" adlandırırıq. Çünki Vətən də ana qucağı kimi isti, doğma və əzizdir. Vətəni sevmək azdır, onu qorumaq, bərəkətli torpaqlarını əkib-becərmək lazımdır.

Bəs vətənpərvər kimdir? Kim vətənpərvər hesab edilir?

Buna müxtəlif cavablar verilə bilər. Ancaq əsl vətənpərvər o şəxsdir ki, vətənin mənafeyini öz mənafeyindən üstün tutur, yeri gələndə canından keçməyi belə əsirgəmir.

Vətən yolunda canından keçən şəhidlərimizi tanıyırsınız. İndi biz Gültəkin Əsgərovanı, Albert Aqarunovu, Məzahir Rüstəmovu, Mübariz İbrahimovu və digər milli qəhrəmanlarımızı özümüzə örnək götürməli, xatirələrini əziz tutmalı və onların layiqli davamçıları olmalıyıq.

Biz onlarla fəxr edirik.

Milli Qəhrəman
Albert Aqarunov

Milli Qəhrəman
Məzahir Rüstəmov

Vətən sevgisi olmayan insanda heç bir yüksək əxlaqi keyfiyyət ola bilməz. Milli qəhrəmanlarımız qəhrəmanlıq göstərərkən şan-şöhrəti yox, vətən sevgisini əsas hesab etmişlər. Onların çoxu canlarını bu yolda qurban vermişdir.

Vətənimizin ucalması, torpaqların bütövlüyü, onun sayılan dövlətlərdən biri olması uğrunda mübarizə aparan ümummilli lider Heydər Əliyev əsl vətənpərvər idi. "Ömrümün qalan hissəsini də Vətənimə bağışlayıram", – deyən ulu öndər yeni, müstəqil Azərbaycanın qurucusu oldu. Onun vaxtilə yürütdüyü siyasəti hazırda ölkə prezidenti İlham Əliyev uğurla davam etdirir.

Unutmayaq: *vətənpərvərlik ailədən başlayır, məktəbdə formalaşır, həyatda reallaşır.*

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi necə tərbiyə edəcəyiksə, ölkəmizin sabahı bundan asılı olacaqdır.

Heydər Əliyev

Ailə kiçik dövlətdir və buna görə də möhkəm təməl üzərində qurulmalıdır. Ailədə qarşılıqlı hörmət və məhəbbət, məsuliyyət, ailənin hər bir fərdinin öz vəzifələrinə əməl etməsi və s. cəhətlər çox əhəmiyyətlidir.

Demokratik ailədə uşaqların hüququnu qorumaq üçün valideynlər əllərindən gələni edir, onların inkişafı üçün hər bir şəraiti yaratmağa can atırlar. Belə ailədə övlad da öz vəzifəsini başa düşür, valideyn qarşısında mənəvi borcunu yerinə yetirməyə çalışır. Bu zaman valideyn və övlad arasındakı münasibətlər ailənin problemlərinin birlikdə həll edilməsinə imkan verir.

Uşaq dünyaya müstəqil yaşama qabiliyyətləri ilə gəlmir. Valideynlər ona qayğı göstərir, öz borclarını yerinə yetirirlər. Valideyn qocalanda və müstəqil yaşama qabiliyyəti tükənəndə isə övladlar onlara qayğı göstərməlidirlər. Ailədə tərbiyə alan övladın ən böyük vəzifəsi valideynlərinə, müəllimlərinə, ustadlarına ehtiram göstərmək, onlara hörmət etməkdən ibarətdir.

Ata-anaya, ailənin digər üzvlərinə hörmət və məhəbbət bizim davranışlarımızın əsasını təşkil edir. Şübhəsiz, bu məhəbbət inkişaf edərək Vətənə və xalqa olan məhəbbətə çevrilir.

İnsanın xarakterinin, əməyə, mənəvi dəyərlərə, mədəni sərvətlərə münasibətinin ailədən başlandığı və formalaşdığı hamıya məlumdur. Ailənin möhkəmliyi valideynlərlə uşaqları arasında olan münasibətlərdən asılıdır. Valideynlərin övladlarına münasibəti körpə vaxtından düzgün qurulmasa, onların düzgün tərbiyə olunması mümkün deyil. Sağlam bir nəslin yetişdirilməsində ailənin böyük rolu var. Ailədə valideynlərlə övladlar arasında qarşılıqlı anlaşma olmasa, inam və etibar da olmaz. Siz valideynlərinizə həmişə hörmətlə yanaşmalı, onlara olan övladlıq borcunuzu yerinə yetirməyə çalışmalısınız. Bunun üçün sizə müəyyən tövsiyələr təqdim edirik:

- *Valideynlərinizin qayğısına qalın, onların xüsusi günlərini unutmayın;*
- *Valideynlərinizlə rəftarınızda mədəni olun;*
- *Valideynlərinizin əhvali-ruhiyyəsinin pis olduğunu görürsünüzsə, onu yaxşılaşdırmağa çalışın;*
- *Valideynlərinizin problemlərinin həllinə qoşulun;*
- *Valideynlərinizə hörmətlə yanaşın;*
- *Valideynlərinizin arasında olan söhbəti başqalarına danışmayın;*
- *Valideynlərinizə yalan danışmayın;*
- *Valideynlərinizlə mübahisə etməyin;*
- *Valideynlərinizin nəsihətinə qulaq asın və onları səbirlə dinləməyi bacarın;*
- *Valideynləriniz sizdən incikdirsə, səbəbini öyrənməyə çalışın.*

Əgər siz valideynlərinizi başa düşsəniz, onlarla hörmətlə davransanız, aranızdakı münasibətlər düzgün qurular. Ailədə qarşılıqlı hörmət olarsa, sizin də həyatınız rahat olar.

Sual və tapşırıqlar:

1. Valideynləriniz qarşısında mənəvi borcunuzu nədə görürsünüz?

2. Valideynlərlə övladlar arasındakı qarşılıqlı inam dedikdə nə nəzərdə tutulur?

3. Nə üçün çox vaxt "ana" və "vətən" sözləri qoşa səslənir?

4. Məktəbdə vətənpərvərliyinizi necə nümayiş etdirə bilərsiniz? Bunun həlli yollarını, öz üzərinizə düşən vəzifələri müəyyənləşdirin.

5. Musiqiçi, rəssam, alim, yazıçı və əsgərlər vətən qarşısında mənəvi borclarını necə yerinə yetirirlər?

6. İşğal altındakı torpaqlarımızı geri qaytarmaq üçün üzərimizə düşən vəzifələr hansılardır?

7. 20 Yanvar şəhidləri vətən qarşısındakı mənəvi borclarını necə yerinə yetirdilər? Mövzu ilə bağlı divar qəzeti hazırlayın.

8. Bu kiçik parçanı oxuyub müzakirə edin.

Qonşu padşah Hun hökmdarı Metedən ən yaxşı atını istədi. Əgər verməsə, müharibə edəcəyini dedi. Mete atını verdi. Oğlunu istədi. Şah müharibə olmasın deyə, onu da verdi. Ancaq ondan sərhəddəki yararsız torpağı istəyəndə Mete qəzəblənərək dedi: "At və oğul mənim idi, mənasız qan tökülməsin deyə, onları verdim. Lakin torpaq mənim deyil. Torpaq xalqındır, onun üstündə igidlərin qanı axıb. Biz müharibə edəcəyik. Çünki torpaqdan pay olmaz".

9. Cədvəli dəftərinizə çəkib tamamlayın.

Ölkə vətəndaşı	Vətən qarşısında borcu
Müəllim	
Həkim	
Hüquqşünas	
İdmançı	

10. Hesab edin ki, qonşuluqda tək, kimsəsiz bir qadın yaşayır. Siz ona kimsəsizliyini hiss etməsin deyə, hansı köməkliyi göstərə bilərsiniz?

4. Dini ibadətlər və mərasimlər

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin çoxmillətli olması burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ölkədə ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştlük, yəhudilik, xristianlıq, islam və digər dinlər yayılmışdır.

Sizcə, səmavi dinlərin hansı ibadət və mərasimləri bir-birindən fərqlənir?



"Qurani-Kərim"



"İncil"



"Tövrat"

Hər bir dinin özünəməxsus müəyyən ibadət və mərasimləri vardır. Bildiyiniz kimi, islamda namaz hər bir müsəlmana vacib buyurulmuş ibadətdir. İslam dininə görə, namaz vasitəsilə insan Yaradanına öz sədaqətini nümayiş etdirərək Ona yaxınlaşır, saflaşır və ülviləşir.

Müsəlmanlar gündə 5 dəfə namaz qılmalıdırlar.

Cümə müsəlmanlar üçün müqəddəs gün sayılır.

Ramazan və Qurban bayramları müsəlmanların dini bayramlarıdır. Bu bayramlarda müsəlmanlar bir sıra mərasimlər icra edirlər.

İnsanlar Qurban bayramı günü səhər tezdən məscidə toplaşır. Burada bayram namazı qılınır, sonra isə niyyət edənlər qurbanlıq heyvan kəsirlər. Adətən, heyvan kəsilib üç hissəyə ayrılır. Bir hissəsi qohum-qonşuya, bir hissəsi imkansızlara paylanır, qalan hissəsi isə qonaqlar üçün bişirilir. Hər bir qurban kəsən adam bütün malının, mülkünün, ruzisinin Allahdan olduğunu və bütün var-dövlətini Allah yolunda sərf etməyə hazır olduğunu bildirir. Həcc ziyarətində olan insanların kəsdiyi qurbanlar isə, adətən, ehtiyac içində olan dövlətlərin əhalisinə göndərilir.

Ramazan bayramı müsəlmanların əsas bayramlarından biri hesab olunur. Bayram Ramazan ayının sonuncu gecəsi Ayın görünməsi ilə müəyyən olunur. Bayrama qədər müsəlmanlar bir ay müddətində oruc tuturlar. Oruc zamanı insanlar səhərdən gün batana kimi qida və maye qəbul etmirlər. Bayram günü oruc tutulmur, camaat məscidə toplaşır, bayram namazı qılınır. Namazdan sonra hər bir evdə süfrə açılır, müxtəlif yeməklər hazırlanır. Ramazan bayramı günü halva, fətir bişirilir və paylanılır. Orucluq zamanı müsəlmanlar kasıblara pul və ərzaq yardımı edirlər.



Məscid

Kilsə

Sinaqoq

Şənbə yəhudilər üçün müqəddəs gün sayılır.

Şənbə sevinc və istirahət günüdür. Bu gün yəhudilər dincəlir, Tövratı öyrənmək və bayram süfrəsi hazırlamaqla məşğul olurlar. Yəhudi şənbəsi təqvimlə cümə gününün axşamı Günəşin batması ilə başlayır. Evlərdə şamlar yandırılır və dualar oxunur. Bütün ailə və dəvət edilmiş qonaqlar bayram süfrəsində iştirak edir, bu zaman süfrədə mütləq xeyir-dua verilmiş şərab və xeyir-dua verilmiş iki xüsusi bayram çörəyi (xalı) olur. Adətən, şənbə günü sinaqoqu ziyarət edirlər. Bu gün xüsusi dualar oxunur, ətrafa xoş ətirlər səpilir və xüsusi şam yandırılan Xavdal mərasimi ilə bitir. Bir çox mömin yəhudilər bu gün ayaqqabı geyinmirlər.

Pasxa (Pesax) yəhudi bayramıdır. Bu gün bütün dünyanın yəhudiləri Misir əsarətindən azad olunmalarını qeyd edirlər. Bayramın keçirildiyi günlər ərzində yalnız duzsuz və quru çörək (matsu) yeməyə icazə verilir. Pasxanın başlanmasının ilk iki günündən birində bütün ailə qonaqlarla birgə xüsusi pasxa süfrəsində iştirak edir. Ev sahibi Misirdən gedişin tarixçəsini danışır. O, xüsusi olaraq qeyd edir ki, yəhudilər tək Allahı tanımayan Misir fironunun əsarətindən qurtarmaq üçün oranı Musa peyğəmbərlə birlikdə tərk etmişlər. Süfrədə əyləşənlər dua edir və dörd qədəh alkoqolsuz şərab içirlər. Sinaqoqda pasxa günlərində bayram ibadətləri keçirilir.

Bazar günü xristianların müqəddəs günü sayılır.

Pasxa həm də xristianların dini bayramıdır. Pasxa bayramında xristianlar İsa Məsihin dirilmə gününü qeyd edirlər. II əsrdən indiyədək bu bayram bütün kilsələrdə keçirilir, Məsihin ölümü və dirilməsi yad edilir. Xristianların Pasxa bayramı ilə bağlı müxtəlif adət-ənənələri vardır. Onlar Pasxadan əvvəl 40 gün müddətində oruc saxlayırlar. Orucun əsas şərtləri heyvani qida məhsullarından və əyləncələrdən imtina etməkdir.

Din – insanın dünyanı dərk etmək istəyindən yaranmış dünyagörüşü formasıdır.

Pravoslav və katolik kilsələrində bayramdan əvvəlki şənbə gününün gecəsində, adətən, gecə duası oxunur. Xüsusi ayinlər, mərasimlər keçirilir. Bütün xristianlar Pasxa bayramı münasibətilə bir-birlərini təbrik edirlər.

Müxtəlif dinlərdəki ibadətlərin və mərasimlərin fərqli olmasına baxmayaraq, bütün səmavi dinlərin oxşar cəhətləri vardır. Allahın tək olmasını qəbul etmək, yalnız Allahdan imdad istəmək səmavi dinlərin ümumi cəhətidir.

Sual və tapşırıqlar:

1. Müsəlmanlar hansı dini mərasimləri qeyd edirlər?
2. Xristianlar hansı dini mərasimləri qeyd edirlər?
3. Yəhudilər hansı dini mərasimləri qeyd edirlər?
4. Xristianların Pasxa bayramı ilə yəhudilərin Pasxa bayramını Venn diaqramına əsasən müqayisə edin.



5. İsraildə eyni binanın bir qapısından məscidə, digərindən sinaqoqa giriş var. Sizcə bunu necə izah etmək olar?
6. Dinlərə və onların xüsusiyyətlərinə aid cədvəli dəftərinizə çəkib tamamlayın.

Din	Peyğəmbər	İbadət yeri	Müqəddəs gün	Dini mərasim

7. Müxtəlif dinlərə məxsus bayramların oxşar cəhətlərinə aid esse yazın.

II. DÖVLƏTİMƏ ARXALANIRAM

5. Dövlətdə idarəçilik
6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları
7. Hüquqlarımızı qoruyanlar
8. İqtisadi inkişaf

5. Dövlətdə idarəçilik

Siz dövlətin yaranması haqqında məlumatlısınız. Dövlət yarandıqdan sonra cəmiyyəti idarə etmək üçün qanunlar* tətbiq olunmağa başlandı. Sizcə, dövlətdə qanunlar olmasa, nə baş verər?

Dövlətin idarəetmə formaları

Monarxiya	Respublika
irsən keçən hakimiyyət formasıdır. Bəzi monarxiyalarda parlament monarxın səlahiyyətlərini məhdudlaşdıra bilir.	Burada ali hakimiyyət müəyyən müddət üçün seçilmiş hakimiyyət orqanlarına məxsusdur.

Bütün cəmiyyətlərdə dövlətin müxtəlif idarəetmə formaları vardır. Dövlət hakimiyyəti müxtəlif üsul və vasitələrlə həyata keçirilir. Dövlətin idarəetmə formaları dövlətin ali idarəetmə orqanlarının təşkilini, fəaliyyət müddətlərini və səlahiyyətlərini müəyyən edir. Demokratik** dövlət dövlət formalarından biridir. Demokratik dövlətlərdə xalqa dövlət işlərində iştirak etmək hüququ verilir. Demokratik cəmiyyət siyasi partiyalar və təşkilatların qarşılıqlı əlaqəsinə əsaslanan hakimiyyət sistemidir.

Demokratik dövlətin prinsipləri:

Xalq hakimiyyət mənbəyidir; Dövlət orqanları seçkilidir;
İnsan hüquqları və azadlıqları dövlət tərəfindən qorunur.

* Qanun cəmiyyətdə yaranan ictimai münasibətləri tənzimləyir, insanları hüquq pozuntusundan qoruyur, qoyulan qaydalara əməl etməyən şəxslərin cəzalanmasını müəyyən edir.

** Demokratiya yunanca "xalq hakimiyyəti" deməkdir.

Dövlət hakimiyyətinin bölünməsi

1. Qanunvericilik hakimiyyəti.
2. İcra hakimiyyəti.
3. Məhkəmə hakimiyyəti.

Dövlətimizin konstitusiyasına əsasən, Azərbaycan Respublikası demokratik dövlətdir. Dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Konstitusiyamızın 7-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, dövlətimizdə ***qanunvericilik hakimiyyətini*** Milli Məclis həyata keçirir. Ölkədə qanunlar yalnız Milli Məclis tərəfindən qəbul olunur. Milli Məclisin özü isə seçki yolu ilə formalaşır.

Milli Məclisin bir çox səlahiyyətləri vardır. Milli Məclisin müxtəlif komitələri fəaliyyət göstərir. Azərbaycan Respublikasında hər bir vətəndaş öz seçdiyi deputatı vasitəsilə Milli Məclisə təkliflər verə bilər.

Ölkəmizdə ***İcra Hakimiyyəti*** Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

Ölkə prezidenti konstitusiyadan irəli gələn bəzi məsələlərin həlli üçün fərman və sərəncamlar verir.

Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır. Nazirlər Kabineti təhsil, rabitə, informasiya, səhiyyə,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

Milli Məclis:

– Qanunverici hakimiyyətdir.
– Azərbaycan xalqının maraqlarını və iradəsini ifadə edir.
– Fəaliyyətində müstəqildir.

Prezident:

1. Ali Baş Komandandır.
2. Dövləti təmsil edir.
3. İcra başçılarını vəzifəyə təyin və vəzifədən azad edir.
4. Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini, Baş prokurorunu və digər vəzifəli şəxsləri təyin edir və vəzifəsindən azad edir.
5. Qanunları imzalayır.
6. Əfv etmək, təltif etmək, çağırışçıları orduya səfərbər etmək, tərxis etmək və s. səlahiyyətlərə malikdir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının İnzibati Binası

Dövlət iki halda sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.
Heydər Əliyev

sosial təminat, mədəniyyət və s. məsələləri öz səlahiyyəti çərçivəsində təmin edir.

Məhkəmə hakimiyyəti ölkədə ədalət mühakiməsini həyata keçirən yeganə hakimiyyətdir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Apelyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi (şəhər, rayon) məhkəmələri və digər məhkəmələr həyata keçirir. Onlar vətəndaşlarımızın hüquq və azadlığını qoruyur.

Sual və tapşırıqlar:

1. Dövlət idarəetmə formalarını səciyyələndirən cəhətlər hansılardır?
2. Dövlətlərdə hansı idarəetmə formaları mövcuddur?
3. Hakimiyyətin bölünməsi prinsipinin nə demək olduğunu izah edin.
4. Konstitusiya haqqında məlumat toplayın.
5. Siz Milli Məclisə təkliflər vermək istəsəniz, bunu necə edərsiniz?
6. Azərbaycanda qanunverici orqanın səlahiyyətlərini açıqlayın.
7. Respublikamızda təhsil sahəsində gedən dəyişikliklərdə dövlətin rolu haqqında məlumat toplayın.
8. “Qanunların icrasına nəzarət olunmasa, ölkədə nə baş verər?” mövzusunda esse yazın.

6. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyaları

Artıq sizin dövlət haqqında müəyyən məlumatınız var. Məlumdur ki, dövlət cəmiyyətin həyatında mühüm rol oynayır. Gəlin araşdıraq: dövləti digər siyasi təşkilatlardan fərqləndirən cəhətlər hansılardır?

Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

Heydər Əliyev

Dövlətin idarə olunmasında müxtəlif insanlar iştirak edirlər. Onlar dövlətin idarə olunmasını dövlət orqanları, müəssisə və təşkilatlar vasitəsilə həyata keçirirlər. Dövlətin məqsədi onun funksiyalarında əks olunur.

DÖVLƏT:		
Cəmiyyətin bütövlüyünü təmin edir.	Ərazi bölgüsü aparır.	Əhalinin əlaqələrini təmin edir.
Qanunlar verir.	Vətəndaşlıq verir və vətəndaşlığı ləğv edir.	Vergi və pul siyasəti aparır və s.

Dövlətin fəaliyyətinin istiqamətləri onun funksiyaları adlanır. Bu funksiyalar iki qrupa bölünür.

Siz bunların bir neçəsi ilə tanış olmusunuz. Bəzi funksiyalarla da tanış olaq.

DÖVLƏTİN FUNKSİYALARI

Daxili funksiyalar:

İqtisadi funksiya
Sosial funksiya
Hüquqi funksiya
Siyasi funksiya
Təhsil funksiyası
Mədəni-tərbiyə funksiyası
Ekoloji funksiya

Xarici funksiyalar:

Digər dövlətlərlə əlaqə funksiyası
Ölkənin müdafiəsi funksiyası

İqtisadi funksiya – Dövlət ölkədə iqtisadi prosesləri təşkil edir və tənzimləyir. Məsələn, dövlət büdcəsini müəyyənləşdirir, vergi siyasətini həyata keçirir, sahibkarlıq fəaliyyətinin inkişafına şərait yaradır və s.
Sosial funksiya – əməkqabiliyyətli insanların işlə təmin olunmasına şərait yaradır. Yeni iş yerləri açılır, əməkhaqları, təqaüdlər, pensiyalar artırılır və s.
Hüquqi funksiya – insanların hüquqlarını qoruyur, hüquq normalarını müəyyən edir.
Siyasi funksiya – əhalinin arzu və istəklərinə cavab verən siyasi xətti işləyib hazırlayır.
Təhsil funksiyası – təhsil almaq üçün şərait yaradır.
Mədəni-tərbiyə funksiyası – əhalinin mədəni tələbatlarının ödənilməsi, dünya mədəniyyəti ilə tanışlıq məqsədilə tədbirlər həyata keçirir.
Ekoloji funksiya – təbii ehtiyatlardan düzgün istifadə etmənin müəyyənləşdirilməsi və insanların sağlam ətraf mühitdə yaşamalarının təmin olunmasını həyata keçirir.
Digər dövlətlərlə əlaqə funksiyası – bir çox ölkələrlə mədəni, siyasi və iqtisadi əlaqələr qurur.
Ölkənin müdafiə funksiyası – ölkənin ərazi bütövlüyünü qoruyur, müdafiə qüdrətini artırır və s.

Sual və tapşırıqlar:

1. Respublikada son illərdə təhsillə bağlı görülən işlərin siyahısını tərtib edin.
2. Dövlət bazarda məhsulun qiymətini ucuzlaşdırmağa nail olmaq üçün hansı yollardan istifadə edə bilər? Məlumat toplayın.
3. Dövlət çoxuşaqlı ailələrə kömək edir. Bu onun hansı funksiyasına aiddir? Dövlət daha kimlərə yardım edir? Məlumat toplayın.
4. Ölkəmizdə dünya mədəniyyəti ilə əlaqədar keçirilən tədbirlərə aid məlumat toplayın.
5. Ölkəmizdə olan qaçqın və köçkün ailələrə dövlət qayğısı haqqında məlumat toplayın.
6. Cədvəl qurub göstərilənlərin dövlətin hansı funksiyalarına aid olduqlarını qruplaşdırın: sərhədləri və daxili asayişi qoruyur, əhalinin dünya mədəniyyəti ilə tanış olması üçün tədbirlər təşkil edir, ticarət əlaqələri yaradır, hüquq normaları müəyyən edir, yeni bağça və məktəblər açır.

7. Hüquqlarımızı qoruyanlar

Dövlətin funksiyalarından birinin hüquqi funksiya olduğunu bilirsiniz. Artıq beşinci sinifdə insanların hüquqlarını müdafiə edən təşkilatlar haqqında da biliklər əldə etmisiniz. Bəs bu təşkilatların fəaliyyəti haqqında nə bilirsiniz?

İnsan təbiətin təkrarolunmaz varlığıdır. Yaxşı yaşamaq hər bir insanın haqqıdır və o bunun üçün mübarizə aparır, oxuyur və işləyir. İnsan həm də daim öz ləyaqətini* qorumağa borcludur. Dövlət də, öz növbəsində, vətəndaşlarının mənafeyinin keşiyində durur.

İnsan ləyaqətinə hörmət hər vaxt eyni olmamışdır. Əvvəlcə ləyaqət haqqında təsəvvürlər formalaşmış, sonralar isə insan ləyaqəti müdafiəsinin ən mükəmməl mexanizmi – insan hüquqları yaranmışdır. İnsan hüquqlarına əməl olunması sahəsində başlıca məsuliyyətin dövlət üzərinə düşməsi qanunauyğundur, çünki hər bir insanın hüquq və azadlığını qorumaq bilavasitə dövlətə məxsusdur. Azərbaycan Respublikasında vətəndaşların hüquq və azadlığı Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunur.

Əsas insan hüquqları Azərbaycan Respublikasının Konstitusiyasının 24–71-ci maddələrində sadalanır.

Azərbaycan Respublikasının Konstitusiyasının 52-53-cü maddələri Azərbaycan Respublikasının vətəndaşlarının hüquqlarına və onlara verilən hüquqi təminatlara həsr olunmuşdur. Vətəndaş qanunla müəyyən olunmuş hüquqlardan istifadə edən və dövlət qarşısında vəzifələr daşıyan şəxsdir. Bu şəxslər Azərbaycan dövlətinə və onun qanunlarına tabedirlər.

Azərbaycan Respublikasının vətəndaşlarının hüquq və azadlığı Konstitusiyanın 125-ci maddəsinə əsasən məhkəmələr tərəfindən müdafiə olunur.

Ümumiyyətlə, Konstitusiyanın 158 maddəsinin 40-dan çoxu insan hüquq və azadlığına həsr edilmişdir. İnsanlarımızın hüquqları onların qadın, kişi olmasından, harada yaşamasından, irqindən, dilindən, dini inancından asılı olmayaraq qorunur.

Bununla yanaşı, 2002-ci ildən respublikamızda digər demokratik ölkələrdə olduğu kimi, insan hüquqlarının müdafiəsi üçün İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman**) fəaliyyət göstərir.

Ombudsman öz mahiyyətinə görə dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə aid olmayan orqanıdır.

---

* Ləyaqət hər bir insanın şəxsiyyətinə və özünə hörməti deməkdir.

** Ombudsman İsveç dilində "ombuds" – "aparıcı", "man" – "şəxs" deməkdir. Mənası – insan hüquqlarının təmin olunmasına nəzarət edən şəxs.

Qanuna əsasən, o, tam müstəqildir. Onun əsas işi vətəndaşların ərizə və şikayətlərini araşdırmaqdır.

İnsan hüquqlarının qorunması ilə müxtəlif beynəlxalq təşkilatlar da məşğul olur. Siz bunlardan BMT-nin və ATƏT-in fəaliyyətləri ilə tanış olmusunuz. BMT-nin xüsusi komissiyasının hazırladığı "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"-nin* qəbul edildiyi gün – 10 dekabr ***İnsan Hüquqları Günü*** kimi qəbul olunub. Bu bəyannamə 1948-ci ildə qəbul edildikdən sonra 1950-ci ildə bütün dünya dövlətlərində onu qeyd etmək tövsiyə olunmuşdur.

Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər.
Heydər Əliyev

BMT beynəlxalq səviyyədə insanların hüquqlarını qorumaq üçün müxtəlif istiqamətlərdə sənədlər hazırlamışdır.

Bilirsiniz ki, UNICEF (*Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu*) BMT-nin uşaqların hüquqlarını müdafiə edən təşkilatıdır. Qadın hüquqlarının pozulmasının qarşısını almaq üçün isə UNIFEM (Birləşmiş Millətlər Təşkilatının Qadınlar Fondu) yaradılmışdır. Bu fondun əsas işi kişi və qadın bərabərliyini həyata keçirməkdir.

---

* Bəyannamə fars dilindəki "namə" və ərəb dilindəki "bəyan" sözlərinin birləşməsindən yaranıb. Mənası – müəyyən prinsiplərin bəyan edildiyi beynəlxalq hüquqi sənəd.

Qadın və kişilər arasında sosial bərabərlik "gender bərabərliyi" kimi qəbul olunur. Gender anlayışı indi hamıya tanışdır. Gender bərabərliyinin bəzən qadın hüquqlarının qorunması kimi başa düşülməsi səhvdir. Burada məqsəd qadın və kişilərin cəmiyyətdəki vəziyyətində mövcud olan fərqlərin aradan götürülməsidir.

18 iyun – Milli İnsan Hüquqları Günüdür.

ATƏT və ondan əvvəl yaranan Avropa Şurasının əsas prinsiplərinə insan hüquqlarının qorunması, qanunların aliliyi aiddir.

İkinci Dünya müharibəsindən sonra qaçqın və ölkədaxili köçkünlər dünya birliyi üçün çox böyük problemlər yaratdı. Bu problemləri aradan qaldırmaq və qaçqınların hüquqlarının pozulmasının qarşısını almaq üçün 1945-ci ildə BMT Qaçqınlar üzrə Ali Komissarlığını yaratdı. Hazırda ölkəmizdə 1988-ci ildə Ermənistandan qovularaq ata-baba yurdlarını məcburi tərk etmiş ***qaçqınlar*** vardır. Torpaqlarımızın zəbt edilməsi nəticəsində Dağlıq Qarabağda və ətraf bölgələrdə kütləvi şəkildə insan hüquq və azadlığının pozulması baş vermişdir. Ölkə daxilində əhalinin bir qismi də öz yaşayış yerlərini məcburi tərk etmişdir ki, bunlar da ***köçkün*** adlanır.

Dövlətimiz qaçqın və köçkünlərə hərtərəfli yardım edir. Onların hüquqlarını qorumaq və problemlərini həll etmək üçün Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Ancaq unutmayaq ki, soydaşlarımızın hüquqları mənfur düşmənlərimiz olan erməni millətçiləri və onları dəstəkləyənlər tərəfindən pozulmuşdur. Azərbaycanlılar öz evlərindən didərgin düşmüşlər. Xocalıda isə əsl soyqırımı törədilmişdir. Biz bunu unutmamalıyıq! Torpaqlarımız zəbt olunmuşdur. Onu azad etmək bizim borcumuzdur!

"İnsan hüququ hər bir insanın hüququdur, eyni zamanda hər bir xalqın hüququdur".

Heydər Əliyev

Konstitusiyada əks olunan bəzi insan azadlıq və hüquqları:
İnsan azadlığı
Fikir və söz azadlığı
Vicdan azadlığı
Sərbəst toplaşmaq azadlığı
Məlumat azadlığı
Yaradıcılıq azadlığı

İnsan hüquqları
Təhsil hüququ
Bərabərlik hüququ
Yaşamaq hüququ
Azadlıq hüququ
Mülkiyyət hüququ
Nikah hüququ
Əmək hüququ
İstirahət hüququ
Şəxsi toxunulmazlıq hüququ

Sual və tapşırıqlar:

1. UNICEF və UNIFEM fondlarının fəaliyyətini müqayisə edin.

2. BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sı ilə tanış olun, sağlamlıq və təhsil hüququnun qorunmasına aid olan bəndləri seçib yazın.

3. BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sına daha hansı hüquqlarınızı daxil edərdiniz?

4. İnsan hüquqlarının qorunması dövlətimizdə hansı sənəddə öz əksini tapır?

5. Azərbaycanda xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev 1901-ci ildə Bakıda Qızlar məktəbi açdırmışdır. Bununla qadınların hansı hüquqları nəzərə alınmışdır?

ARAŞDIRIN
Aşağıdakı mövzular haqqında məlumat toplayın

- Uşaq doğulduqda ilk olaraq onun hansı hüquqları yaranır? Bununla bağlı BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiya"sında hansı bəndlər vardır?
- Ölkəmizdə ombudsmanın fəaliyyəti.
- Xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması.
- Qadın hüquqlarının pozulmasının qarşısını almaq üçün hansı beynəlxalq təşkilatlar fəaliyyət göstərir? Bu təşkilatlar tərəfindən qadınların hansı hüquqları qorunur?

8. İqtisadi inkişaf

Ölkəmizin iqtisadi inkişafında neftin və qazın rolu böyükdür. Neftdən hansı məhsullar istehsal olunur?

İnsan çox qədimdən yemək, geyinmək və təhlükələrdən qorunmaq haqqında fikirləşməli olmuşdur. Qədim insanlar təbiətin bəxş etdiyi məhsullardan – yabanı bitkilərdən, vəhşi heyvanlardan qida kimi istifadə etmiş, müxtəlif əmək və ovçuluq alətləri hazırlamışlar. Sonralar onlar heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar. Zaman keçdikcə yeraltı sərvətlərdən də istifadə olunmuşdur.

? *Ölkə iqtisadiyyatının inkişafında neftin və qazın nə kimi rolu vardır?*

Biz bazar iqtisadiyyatı yolu ilə getməliyik.
Heydər Əliyev

İnsanın fəaliyyət sahələri genişləndikcə iqtisadiyyat anlayışı formalaşmağa başlamışdır. Deməli, iqtisadiyyat bəşər tarixinin yaranması ilə birgə yaranmışdır. O, insan fəaliyyətinin ən mühüm sahəsidir. İqtisadiyyatsız cəmiyyət təsəvvür etmək mümkün deyil.

Hər bir dövlətin qüdrəti onun iqtisadi gücü ilə ölçülür. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin əhalisi firavan yaşayır, onların ehtiyacları ödənilir. İnsanlar öz ehtiyaclarını ödəmək üçün daim müxtəlif nemətlər – qida məhsulları, geyim və məişət əşyaları və mənzil üçün lazım olan avadanlıqlar istehsal edirlər.

Cəmiyyət inkişaf etdikcə ictimai təsərrüfat formaları bir-birini əvəz etmişdir. Bu təsərrüfat formalarına *natural təsərrüfat, əmtəə təsərrüfatı və bazar iqtisadiyyatı* aiddir. Müəyyən bir dövrdə insanlar yalnız öz tələbatlarını ödəmək məqsədilə məhsul istehsal edirdilər. Bu, natural təsərrüfat forması adlanırdı.

Zaman keçdikcə əmtəə təsərrüfat forması natural təsərrüfat formasını əvəz etdi. İnsanlar öz tələbatlarından artıq məhsul istehsal etməyə başladılar.

Bazar iqtisadiyyatı müasir dövrədək gəlib çıxmış və digər təsərrüfat formalarından sonra yaranmışdır.

İnkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də ***bazar iqtisadiyyatı*** insanların sərbəst əmək fəaliyyəti göstərmələrinə şərait yaradır. Bu isə insana öz qabiliyyətini, biliyini və təcrübəsini daim təkmilləşdirmə imkanı verir. Bazar əlaqələri bütün təsərrüfat sahələrini əhatə edir. İstehsal olunmuş məhsul bazara çıxarılır və ilkin qiymət onun maya dəyərinə görə qoyulur. Bazarda satış qiyməti isə insanların tələb və təkliflərinə əsasən müəyyən olunur.

Tələb – alıcıların müəyyən qiymətə almağa hazır olduqları məhsulun ifadə formasıdır.

Tələbin artması və azalması bir çox səbəblərdən asılıdır. Onların ən başlıcası qiymətdir. Əgər məhsulun qiyməti aşağıdırsa, tələbat daha çox ödənilir. Qiymət artarsa, tələb aşağı düşər. Tələb, həm də alıcıların istək və imkanından asılıdır. Məsələn, XX əsrin 80-ci illərində idman ayaqqabılarına tələbin artmasının səbəbi idman ayaqqabılarının dəbə çevrilməsi olmuşdur.

Tunar və Raul idman paltarı almaq istəyir. Sizcə, bu zaman onlar nəyi nəzərə almalıdırlar?

İqtisadiyyat inkişaf etdikcə insanların gəlirləri artır. Gəlirlərin artması insanların ehtiyaclarına təsir göstərir. Məsələn, inkişaf etmiş dövlətlərdə insanlar kompüterləri, məişət avadanlıqlarını hər 3-4 ildən bir dəyişir. Bəzi dövlətlərdə isə bu avadanlıqlardan daha uzun müddət istifadə edilir.

Hər hansı bir məhsula tələb artdıqca istehsalçılar onun istehsalını artırırlar. Bu isə bazarda təklifin artmasına gətirib çıxarır. Təklif nədir?

Təklif – istehsalçıların müəyyən qiymətə satışa çıxarmağa hazırladıqları məhsulun miqdarıdır. Qeyd edildiyi kimi, bazar iqtisadiyyatında tələb və təklif bir-birlərini tənzimləyir. Tələbin artması məhsulun qiymətinin artmasına, təklifin artması isə tələbin azalmasına və istehsal edilən məhsulun qiymətinin azalmasına səbəb ola bilər.

Tələb və təklifə həmçinin başqa amillər də təsir edir. Məsələn: Çörəyə olan tələbat təkcə çörəyin qiymətindən deyil, gəlirdən, başqa qidaların qiymətindən, çeşidin çoxluğundan və s. asılıdır.

Tələb təkliflə sıx bağlı olduğu üçün hər bir ölkənin iqtisadiyyatında mühüm rol oynayır. Bu isə həmin ölkənin inkişafına təkan verir.

Sual və tapşırıqlar:

1. Bazarda qiymət necə müəyyən olunur?
2. Ölkəmizin iqtisadiyyatını gücləndirən vasitələrin siyahısını tərtib edin.
3. Neft sənayesinin, turizmin inkişafının iqtisadiyyata təsirinə aid məlumat toplayın.
4. Bir ölkənin əhalisinin tələbatları azalsa, o, ölkə iqtisadiyyatına təsir edə bilərmi? Fikrinizi izah edin.
5. Ölkəmizin iqtisadi inkişafını əks etdirən plakat hazırlayın.
6. İqtisadiyyatın hansı sahəsinə daha çox üstünlük verirsiniz? Səbəbini izah edin.
7. Qiymət artarsa, istehlakçılar daha az benzin alar. Bu nümunə əsasında qiymətin tələbdən asılılıq qrafikini qurun.
8. "Tələbin azalması qiymətlərin düşməsinə və təklifin azalmasına səbəb olur". Buna dair misallar göstərin.

III. CANSIZDAN CANLIYA

9. Maddələrin xassələri
10. Maddələrin tərkibi
11. Elementlər
12. Bir maddədən yeni maddə alına bilərmi?
13. Saf maddələr və qarışıqlar
14. Qeyri-üzvi və üzvi maddələr
15. Üzvi maddədən canlıya
16. İnsan – təbiətin ali varlığı

9. Maddələrin xassələri

Ətrafdakı cisimlərin müxtəlif maddələrdən təşkil olunduğu sizə məlumdur. Siz maddələrin bərk, maye, qaz və plazma halında olduğunu da öyrənmisiniz. Görəsən, maddələr bir-birindən daha hansı xüsusiyyətlərinə görə fərqlənir?

- **Maddənin xassələri**
  - **Fiziki xassələr**
    - **Aqreqat halı**
    - **Rəngi**
    - **İyi**
    - **Dadı**
    - **İstilikkeçirmə qabiliyyəti və s.**
  - **Kimyəvi xassələr**
    - **Digər maddəyə çevrilmə qabiliyyəti**
    - **Digər maddələrlə birləşmə qabiliyyəti və s.**

Maddələri bir-birindən fərqləndirən və oxşarlığını müəyyən edən əlamətlərə ***maddələrin xassələri*** deyilir. Maddələr iki cür – ***fiziki*** və ***kimyəvi*** xassələrə malikdir.

Aşağıdakı maddələri bir-birindən fərqləndirin: kömür, xörək duzu, su, oksigen.

Bərk maddələrdən hazırlanan cisimlər, adətən, öz həcmini saxlayır, onların formasını dəyişmək üçün müəyyən güc sərf etmək lazım gəlir. Bərk cisimlər ***plastik*** və ***elastik*** olmaqla, iki qrupa bölünür. Plastik cisimlər sıxıldıqda öz formasını dəyişir, ancaq sonradan öz-özünə əvvəlki formasını ala bilmir. Plastilin, mum belə maddələrdəndir. Əgər rezin borunu, polad yayı sıxıb buraxsaq, onlar öz əvvəlki formalarına qayıdacaqlar. Belə maddələrə elastik maddələr deyilir.



Bərk



Maye



Qaz

Mayelər öz formasını asanlıqla dəyişir, həcmini isə sabit saxlayır.

Qazların xüsusi həcmi yoxdur, verilən bütün həcmi tutur.

Üç qab götürüb hər birinə ayrılıqda qaz, maye və bərk maddə yerləşdirsək və onları aşağıdakı şəkillərdə olduğu kimi, eyni çəkili daşlarla sıxsaq, nə baş verər? Şəkillərə əsasən fikirlərinizi söyləyin.



Maye *Qaz* *Bərk*

1. *Qaz, maye və bərk maddələrin sıxılma xüsusiyyətləri eynidirmi?*
2. *Bərk maddələr nə üçün sıxılmır?*
3. *Nə üçün maye qaza nisbətən az sıxılır?*

Maddələrin xassələrini nəzərə alaraq, insanlar onlardan cisimlər hazırlayırlar. Məsələn, müxtəlif maddələr olan şüşə və metaldan eyni formalı qablar; rezin, şüşə, metaldan isə eyni formalı borular hazırlana bilər.

Sual və tapşırıqlar:

1. Məişətdə hansı kimyəvi maddələrdən istifadə olunur? Nə üçün onlardan istifadə edərkən ehtiyatlı olmaq lazımdır?
2. Plastik və elastik maddələri necə fərqləndirmək olar?
3. Suyun fiziki xassələrini havanın fiziki xassələrindən fərqləndirin.
4. Şüşə və rezinin xassələrini müqayisə edin.
5. Orxan şişirdilmiş şarı və dəmir parçasını əli ilə sıxıb, bütün ağırlığını bu əşyaların üzərinə salır. Bununla Orxanın nəyi yoxlaya biləcəyini müəyyənləşdirin. Fikirlərinizi əsaslandırın.
6. Xörək duzu və şəkər tozunun, hava və suyun oxşar və fərqli fiziki xassələrini yazın.

Fərqli	**Oxşar**

10. Maddələrin tərkibi

Maddələrin aqreqat hallarını və digər xassələrini bildikdən sonra gəlin təcrübələr aparaq.



Kristal maddənin suda həll olması

1. Bir kağız vərəqini qayçı ilə ən kiçik hissələrə bölün.
2. Qəndi çəkiclə əzin.
3. Stəkandakı sudan bir neçə damcı ayırın.

Sizcə, bu maddələri ən kiçik hissələrə ayırdınızmı? Fikirlərinizi söyləyin.

İndi aşağıdakı təcrübələri aparaq.

4. Qəndi stəkandakı isti suya salıb qarışdıraq.
5. Rəngli kristal* maddəni suda həll edək.

Nə müşahidə etdiniz?

Bərk maddə hissəcikləri qabdakı mayenin içindədir. Bizim gözümüzlə görə bilmədiyimiz bu kiçik hissəciklər molekullardan, molekullar isə atomlardan ibarətdir. Keçmiş dövrlərdə atomları maddənin ən kiçik hissəciyi hesab edirdilər. "Atom" sözünün mənası da "bölünməz" deməkdir. Sonradan alimlər atomların da bölünə bildiyini kəşf etdilər.



Yod molekulları

Demokrit

Maddələrin bölünməyən hissəciklərdən ibarət olmasını ilk dəfə eramızdan təqribən 2500 il əvvəl qədim yunan filosofu Demokrit söyləmişdir.

Təbiətdə ən kiçik atom hidrogen, ən böyük atom yod atomlarıdır.

Təbiətdə yüzdən çox atom növü vardır. Atomlar birləşib molekulları əmələ gətirir. Maddələrin bir qismi eyni atomlardan, digər qismi isə müxtəlif atomlardan təşkil olunmuşdur. Məsələn, su molekullarının tərkibində hidrogen və oksigen atomları vardır. Havanın tərkibində olan oksigen qazı, azot qazı eyni atomlardan, karbon qazı isə müxtəlif atomlardan təşkil olunmuşdur.

* Kristal – yunanca "buz" və ya "dağ bülluru" mənasını verir.

Atom və molekullar daim hərəkətdədir. Molekulların arasında cazibə qüvvəsi mövcuddur. Bu qüvvə qazlar arasında çox az, maye molekulları arasında qazlara nisbətən çox, bərk maddələrdə isə daha da çoxdur.



Su molekullarının quruluşu

Eyni atomlardan təşkil olunan maddələrin molekulları
azot
oksigen
hidrogen
xlor
Müxtəlif atomlardan təşkil olunan maddələrin molekulları
su
karbon qazı
zülal
nişasta

Sual və tapşırıqlar:

1. Atomları nə üçün "bölünməz" adlandırırlar?
2. Xörək duzunu yeməyə əlavə etdikdə nə baş verir? Səbəbini izah edin.
3. Əgər maddələr müxtəlif deyil, yalnız eyni atomlardan təşkil olunsa idi, bu zaman təbiətdəki maddələrin sayı dəyişərdimi? Nə üçün?
4. İki qazın birləşməsindən yaranan maye halında maddə yazın.

11. Elementlər

Kimyəvi element anlayışı elmə XIX əsrin əvvəllərində ingilis kimyaçısı Con Dalton tərəfindən gətirilmişdir.
Element "tərkib hissə" deməkdir. Atomlar elementlərin, elementlər maddələrin tərkib hissəsidir. Hazırda 100-dən çox elementin olduğu da məlumdur. Bu elementlərə həm canlı, həm də cansız təbiətdə rast gəlinir. Oksigen, karbon, azot və hidrogen elementləri canlı orqanizmləri təşkil edən maddələrin tərkibində üstünlük təşkil edir.

O *oksigen*

H *hidrogen*

N *azot*

C *karbon*

Fe *dəmir*

Ancaq atom və kimyəvi element anlayışlarını eyniləşdirmək olmaz. Elmə məlumdur ki, bir çox elementlərin müxtəlif kütləli atomları mövcuddur. Atom konkret bir hissəcikdir.

Qiymətli daşların çoxu bir neçə elementdən ibarətdir. Almaz yalnız karbon elementindən təşkil olunmuşdur.

Suyun tərkibi hidrogen və oksigen elementlərindən ibarətdir. Şəkərin tərkibində üç element var: karbon, hidrogen, oksigen. Deməli, maddələr müxtəlif elementlərdən təşkil olunmuşdur. Kimyəvi elementlər metallar və qeyri-metallara bölünür.

Metallar adi şəraitdə parlaq, bərk olub (civədən başqa), elektrik cərəyanını və istiliyi keçirir, plastikdir. Qeyri-metallar isə parlaq olmur, elektrik cərəyanını və istiliyi keçirmir, ya da pis keçirir. Onlar qaz, maye və bərk halda olur.

Metallar
mis
qızıl
gümüş
alüminium
maqnezium
dəmir
Qeyri-metallar
hidrogen
yod
karbon
oksigen
azot
fosfor

Cu *mis*

Ag *gümüş*

P *fosfor*

I *yod*

Mg *maqnezium*

Metallardan hazırlanan cisimlər

dəmir


mis

bürünc

alüminium

qızıl

gümüş

Qeyri-metallardan hazırlanan cisimlər

kərpic

şüşə

rezin

plastik material

taxta

çini

Hazırda elementlər milyonlarla maddələri əmələ gətirir. Bu maddələrin tərkibindəki elementləri xüsusi işarələrlə göstərirlər. Bu işarələr latınca elementin adının baş hərfini və ya iki hərfini ifadə edir.

Elementlərin adlandırılması müxtəlif prinsiplər əsasında: bəzilərinin adları onların xassələrinə (fosfor – işıq saçan), digərlərininki Günəş sistemi planetlərinin (Uran, Selen və s.), həmçinin bəzi ölkələrin və qitələrin (Germanium, Evropium və s.), məşhur alimlərin (Bor, Eynşteynium və s.) şərəfinə adlandırılmışdır.

Sual və tapşırıqlar:

1. Maddələrin tərkibində elementlər müxtəlif ola bilərmi? Niyə?
2. Qızıl və oksigeni xassələrinə görə bir-birindən fərqləndirin.
3. Metallardan hazırlanan məişət əşyalarının siyahısını tərtib edin.
4. Yodun xassələri və əhəmiyyətinə dair məlumat toplayın.
5. Bəzək əşyaları hazırlanan maddələrin siyahısını tərtib edin.

12. Bir maddədən yeni maddə alına bilərmi?

Gəlin belə bir sual ətrafında düşünək: bir maddədən yeni bir maddə alına bilərmi? Bunun üçün sehrbazların etdiklərini yadınıza salın. Sehrbazlar misi qızıla çevirir, bir cismi yox edib yerinə yenisini yarada bilirlər. Əslində isə bu, bir maddədən yeni maddənin alınması deyil. Bu zaman göz aldanır. Hadisənin əslini görə bilmirik. Bəs bunu necə izah etmək olar? Bu, bir maddənin yenisinə çevrilməsi adlana bilərmi?

Birlikdə bu suala cavab tapmağa çalışaq və bunun üçün müxtəlif təcrübələr aparaq:

1. İki həvəngdəstədə ayrı-ayrılıqda qoz ləpəsi və qəndi əzək.	***2. Mumu və şokoladı alüminium qabda əridək.***	***3. Kağızı və ya kartonu qayçı ilə kiçik hissələrə doğrayaq.***

Bu zaman hansı dəyişiklikləri müşahidə etdiniz? Yeni maddələr alındımı?



Bir maddədən yeni maddənin alınmaması ilə baş verən dəyişikliklər ***fiziki hadisələr*** adlanır.

Maddənin fiziki xassələrinə onun aqreqat halı, rəngi, iyi, dadı, sıxlığı, həllolma və elektrikkeçirmə qabiliyyəti, ərimə və qaynama temperaturunun aid olduğunu bilirsiniz.

Gəlin digər təcrübələr aparaq və nəticələri müzakirə edək:

1. Kartofu kəsib, onun üzərinə bir neçə damcı yod tökək.	***2. Kağızı yandıraq.***	***3. Qəndi sınaq şüşəsində qızdıraq.***





Bu təcrübələrdə nə müşahidə etdiniz?

- Kartofun üzərinə yod tökərkən nə üçün rəngi dəyişir?
- Kağız yanarkən nə üçün onun rəngi qaralır?
- Şəkər qızdırıldıqda əriyir, sonra qaralır; burada yeni maddə nə zaman yaranır?

Bir maddədən yeni maddələrin alınması ilə baş verən dəyişikliklərə ***kimyəvi hadisələr*** deyilir. Maddələrin kimyəvi xassələrinə onların xarici təsirlər nəticəsində yeni maddələrə çevrilməsinin, başqa maddələrlə qarşılıqlı təsirinin və s. aid olduğunu bilirsiniz. Siz apardığınız təcrübələrdə fiziki və kimyəvi xassələrin necə fərqləndiyini əyani şəkildə müşahidə etdiniz. Gündəlik həyatınızda belə hadisələrlə tez-tez rastlaşacaqsınız.

Sual və tapşırıqlar:

1. Maddənin kimyəvi xassələri hansılardır?
2. Dəmirin və qəndin fiziki xassələrini müqayisə edin.
3. Məişətdə rastlaşdığınız maddələr hansı dəyişikliyə uğrayır? Misallarla izah edin.
4. Gündəlik həyatda müxtəlif peşə adamlarının istifadə etdiyi maddələrdə baş verən dəyişiklikləri araşdırın və cədvəli doldurun.

Peşələr	İstifadə olunan maddələr	Dəyişiklik
1. Çörəkbişirən		
2. Rəngsaz		
3. Aşpaz		
4. Bərbər		
5. Dəmirçi		

5. Kağızın kiçik parçalara bölünməsi ilə yanması arasındakı fərqi izah edin.
6. Xörək bişirərkən istifadə olunan ərzaqlarda baş verən dəyişikliklərə aid nümunələr yazın.

13. Saf maddələr və qarışıqlar

Şəkəri suda həll etsək, nə müşahidə edərik? Bərk şəkər və suda həll olunmuş şəkər haqqında nə deyə bilərsiniz?

Bizi əhatə edən mühitdə maddələr, əsasən, qarışıq halda olur. İstər nəfəs aldığımız hava, istər torpaq, istərsə də yayda həvəslə sərinləndiyimiz dəniz suyu müxtəlif maddələrin qarışığından əmələ gəlmişdir.



Qarışıq



Neftin tərkibində müxtəlif kimyəvi elementlərin təqribən 380 mürəkkəb birləşməsi var.

Şəkillərdəki maddələr haqqında nə deyə bilərsiniz?

Tək bir elementdən ibarət olan və ya eyni molekullardan əmələ gələn maddələr ***saf*** maddələrdir. Saf maddələrə təbiətdə az rast gəlinir. Məsələn: oksigen qazı, yod, karbon qazı, hidrogen, su buxarı, qızıl külçəsi saf maddələrdir.

Saf maddələrin xassələri həmişə sabit olur. Məsələn, saf su adi şəraitdə 100°C-də qaynayır, 0°C-də isə donur. Qarışıqların xassələri isə dəyişkən olur. Onların xassələri tərkiblərindəki maddələrin miqdarından asılıdır. Məsələn, suda həll olmuş duzun miqdarından asılı olaraq, suyun donma və qaynama temperaturu dəyişir. Duzlu su saf sudan gec donur və daha yüksək temperaturda qaynayır.

Bəs qarışıqları saf maddələrə necə ayırmaq olar? Bunun üçün müxtəlif üsullardan istifadə olunur.

Qarışıqları saf maddələrə ayırma üsulları:
Kristallaşdırma
Çökdürmə
Durultma
Süzmə
Buxarlandırma
Maqnitlə ayırma
Distillə etmə

Qarışıqları ayırma üsullarından istifadə etməklə aşağıda göstərilənləri ayıraq:

1. Dəmir tozu və oduncaqdan alınan kəpək qarışığı.	2. Xörək duzu ilə qum qarışığı.	3. Dəmir tozu və kükürd tozu qarışığı.

Maddələr	
Saf maddələr	Qarışıqlar
Tərkibində yalnız bir növ atom və ya molekul olur.	Tərkibində iki və daha çox saf maddə olan bir sistemdir.

Hazırda bəzi saf maddələrin çox əhəmiyyətli olduğunu sübuta yetirmişlər. Məsələn, kosmonavtikada, radiotexnikada belə saf maddələrdən istifadə olunur.

Ətrafımızda və bədənimizdə müxtəlif qarışıqlara rast gəlinir. Tənəffüs etdiyimiz hava, şüşə qablar, neft, dəniz və okean suyu, torpaq, bədənimizdə dövr edən qan, dərimizdən ifraz olunan tər və s. qarışıqlardır.

Maddələri həm də ***bəsit*** və ***mürəkkəb*** olmaqla iki yerə bölürlər. Eyni növ atomlardan əmələ gələn maddələr bəsit maddələr, müxtəlif növ atomlardan əmələ gələn maddələr isə mürəkkəb maddələr adlanır.

Maddələr
Bəsit
oksigen
hidrogen
qızıl
gümüş
yod
azot
Mürəkkəb
su
xörək duzu
şəkər
spirt
pas
karbon qazı

Sual və tapşırıqlar:

1. Hazırlanmış qəhvənin içində hansı maddələrin qarışığı olduğunu dəftərinizə yazın.
2. Cədvəl qurub ətrafınızda olan saf maddə və qarışıqlara aid misallar yazın.
3. Bir ovuc torpaq götürüb su ilə qarışdırın və gördüklərinizi izah edin.
4. Keçmişdə süddən yağı necə ayırdıqlarını araşdırıb öyrənin.
5. Duzlu sudan duzu necə ayırmaq olar? Fikrinizi izah edin.
6. Maqnitlə ayırma üsulundan istifadə etməklə hansı qarışıqları ayırmaq mümkündür?
   - Xörək duzu və qənd qırıntıları;
   - Təbaşir tozunun su ilə qarışığı;
   - Mismarla torpağın qarışığı.

14. Qeyri-üzvi və üzvi maddələr

Görəsən, təbiətdəki maddələri bir-birindən daha necə fərqləndirmək olar?

Oksigen, karbon, hidrogen və azot hüceyrədəki elementlərin 98 faizini təşkil edir.

Təbiətdəki maddələr iki yerə bölünür: qeyri-üzvi və üzvi. Maddələrin belə adlandırılması təsadüfi deyil. Su, duzlar, kül və s. qeyri-üzvi maddələrdir. Onlara, əsasən, cansız təbiətdə rast gəlinir. Üzvi maddələrə isə canlı orqanizmlərdə təsadüf edilir. Orqanizmlərdə yaranan üzvi maddələri əvvəllər laboratoriyalarda almaq mümkün deyildi. Bitki və heyvan orqanizmlərində əmələ gələn zülallar (ət, yumurta ağı), nişasta, yağlar, şəkər və s. belə maddələrdəndir. Hazırda insanlar üzvi maddələri laboratoriyalarda süni yolla sintez edə bilirlər. Bütün üzvi maddələrin tərkibində karbon elementi vardır. Karbon elementi ilə yanaşı, onların tərkibində oksigen, hidrogen, azot və s. elementlər də olur. Üzvi maddələri yandırsaq, onlardan qeyri-üzvi maddələr alınar. Məsələn, biz toxumu sınaq şüşəsində qızdırsaq, o qaralar, kömürləşər, sonra isə yanaraq külə çevrilər. Onun yanması nəticəsində həm də karbon qazı və su ayrılır. Bu zaman üzvi maddələrdən qeyri-üzvi maddələr alınır. Təbiətdə yaşıl bitkilərdə gedən *fotosintez** prosesi zamanı isə karbon qazı və sudan nişasta hazırlanır.



Təbiətdə maddələrin dövranı

* Fotosintez – yunan sözüdür. Foton – "işıq", sintez – "toplamaq" deməkdir.

Canlılar ***hüceyrələrdən*** təşkil olunub. Hüceyrələr canlıların ən kiçik hissələridir. Hüceyrənin tərkibi də qeyri-üzvi və üzvi birləşmələrdən əmələ gəlmişdir. Siz ilbizlərin çanağının, bədənimizdəki sümüklərin və s. tərkibində qeyri-üzvi maddələrlə yanaşı, üzvi maddələrin də olduğunu bilirsinizmi?

Bunun üçün gəlin təcrübələr aparaq:

1. Üzərinə zəif xlorid turşusu tökülüb, bir gün saxlanılmış sümüyü müşahidə edək. Sümükdə hansı dəyişiklik baş vermişdir?

2. Sümüyü yandıraq. Nə müşahidə etdiniz?

Bu təcrübələrin nəticəsində sümükdə qeyri-üzvi və üzvi maddələrin nə dərəcədə əhəmiyyətli olduğunu müşahidə etmək olar. Sümüyə möhkəmlik verən qeyri-üzvi maddələrin sərtliyi, üzvi maddələrin elastikliyidir.

Sual və tapşırıqlar:

1. İnsanlar laboratoriyalarda süni ipək, süni yumurta, süni balıq kürüsü və s. almışlar. Bu maddələrin faydası və zərəri nədən ibarətdir?
2. Üzvi və qeyri-üzvi maddələr bir-birindən nə ilə fərqlənir?
3. Qida məhsullarının tərkibində olan tanıdığınız üzvi və qeyri-üzvi maddələrin siyahısını tərtib edin.
4. Şəkillərdəki üzvi və qeyri-üzvi maddələrlə zəngin olanları seçin.



5. Bitkilərdən alınan məhsullarda üzvi maddələrin olmasını hansı təcrübələrlə sübut edə bilərsiniz? Fikirlərinizi yazın.
6. "Üzvi maddələr tükənsə, təbiətdə nə baş verər?" mövzusunda esse yazın.

15. Üzvi maddədən canlıya

Şəklə baxın. Orada çoxlu hissəciklər var. Onları bir yerə yığsaq, avtomobil alınar.

Canlılar da bu cür kiçik hissəciklərdən, yəni hüceyrələrdən ibarətdir. Adi gözlə görülməsi mümkün olmayan bu hissəcikləri, yəni hüceyrələri müşahidə etmək üçün mikroskop adlanan böyüdücü cihazdan istifadə olunur. Siz artıq hüceyrələrin tərkibinin qeyri-üzvi və üzvi maddələrdən təşkil olunduğunu bilirsiniz. Bəs müxtəlif canlıların hüceyrələri bir-birindən necə fərqlənir?

Hüceyrələri görmək üçün mikroskopla tanış olmaq, onunla işləmək qaydalarını bilmək lazımdır.

Mikroskoplar kəşf edilənə qədər canlıların quruluşu insanlar üçün bir sirr idi. Çox kiçik orqanizmlər insanlara bəlli deyildi. Xəstəliklərin səbəbi bilinmirdi. Tibb elmi inkişaf etməmişdi. Xalq təbabəti ilə ancaq bəzi xəstəliklər müalicə olunurdu. Mikroskopun kəşfi bir çox sirləri açdı, elmə yeniliklər gətirdi.



Bakteriya hüceyrəsi



Göbələk hüceyrəsi



Bitki hüceyrəsi



Heyvan hüceyrəsi

Hüceyrələri ilk dəfə olaraq mikroskopda mantar* parçasını nəzərdən keçirən *Robert Huk* gözcüklər şəklində görmüşdür. Hollandiyalı *Anton Van Levenhuk* isə özünün hazırladığı mikroskopla ilk birhüceyrəli varlıqları müşahidə etmişdir. Ancaq o dövrdəki mikroskoplar hüceyrələri o qədər də aydın göstərmirdi. Lakin illər keçdikcə mikroskoplar təkmilləşdi və müasir mikroskoplar yarandı. Müasir işıq mikroskopları hüceyrələri min dəfələrlə böyütmə gücünə malikdir. Hətta indi daha çox böyütmə gücünə malik olan ***elektron mikroskoplar*** da vardır. Artıq məlumdur ki, müxtəlif hüceyrələr bir-birinə həm oxşayır, həm də fərqlənir.

İşıq mikroskopu

Bütün hüceyrələrin plazmatik membranı və sitoplazması var.

Sitoplazmanın içində sitoplazma orqanoidləri yerləşir.

Bitki, heyvan, göbələk hüceyrələrində nüvə var.

Bakteriyaların nüvəsi yoxdur.

Bir hüceyrə bir orqanizm ola bilər: bakteriyaların hamısı, göbələk, bitki və heyvanların bəzi növləri.

Heyvan hüceyrələrindən fərqli olaraq, digər canlıların hüceyrələrində membran üzərində qalın qılaf yerləşir.

Müxtəlif canlıların hüceyrələri oxşar və fərqli xüsusiyyətlərə malikdir.

İnsan orqanizmində hüceyrələrin sayı trilyonlarladır.



İnsan hüceyrəsinin modeli

* Mantar – ağac və kol gövdəsində qabığın bir qatıdır.

Hüceyrəni bir fabrikə bənzətmək olar. Fabrikin divarı plazmatik membran, binanın içi sitoplazma, işçilər orqanoidlər, rəhbərlik isə nüvəyə bənzəyir. Bu, heyvan hüceyrəsi olsa, onu bitki hüceyrəsinə oxşatmaq üçün nə əlavə edərdiniz?

Nüvə
Çoxalmanı təmin edir, irsi əlamətləri daşıyır.

Mitoxondri
Enerji mənbəyidir.

Xloroplast
Bitkilərdə fotosintezi həyata keçirir.

Vakuol
Hüceyrə şirəsi ilə doludur. Bitkilərdə çox və böyük olur.

Təbiətdəki canlıların bir qismi böyüdücü cihazlar vasitəsilə görünür, bir qismi isə çox nəhəngdir. Hal-hazırda Yer kürəsindəki canlılar 4 aləmə bölünür: bakteriyalar, bitkilər, göbələklər və heyvanlar. Bu canlılar hüceyrələrdən təşkil olunmuşdur. Təbiətdə hüceyrəvi quruluşu olmayan canlı varlıqlar – viruslar da mövcuddur. Virusların cansızlarla canlılar arasında keçid təşkil etdikləri güman olunur.

Bütün bunlardan belə bir nəticəyə gəlirik ki, insan digər canlılarla vəhdət təşkil edir. Onun hüceyrələrinin quruluşu heyvan hüceyrələri ilə oxşardır. Deməli, canlılar birhüceyrəlilərdən çoxhüceyrəlilərə, onlar da inkişaf edərək insana qədər təkamül etmişlər.

Sual və tapşırıqlar:

1. Bir hüceyrə bir orqanizm ola bilərmi? Bunu necə izah edərsiniz?
2. Mikroskoplar kəşf olunmasaydı, canlıların hansı xüsusiyyətlərini öyrənə bilməzdik?
3. Yalnız mikroskopla görünə bilən canlılar haqqında məlumat toplayın.
4. Canlıların açılmayan sirləri varmı? İzah edin.

16. İnsan – təbiətin ali varlığı

Planetin təbiəti dedikdə onun ayrılmaz bir hissəsi olan insan yada düşür. Məşhur "Kitabi-Dədə Qorqud" dastanında insan təsvir edilərkən təbiətlə müqayisə edilir. Sizcə, nə üçün?

Nə üçün insan təbiətin ən ali varlığıdır? Bu suala cavab axtaraq. İnsan beyninin quruluşu digər canlılarınkından daha mürəkkəb olmaqla, həm də nitq qabiliyyətinə malikdir. Yalnız insan görəcəyi işin əvvəlcədən nə ilə nəticələnə biləcəyini duya bilir. Digər canlılarda bu xüsusiyyət yoxdur.

İnsan təbiətdən ayrı yaşaya bilməz, onun yaşaması üçün lazım olan nə varsa, təbiətdən alır və təbiətdən bəhrələnir. Təbiət insandan heç nə əsirgəmir. Əgər təbiətdə Günəş, su, hava olmasa, insan mövcud ola bilməz. O, təbiətdən yaşamaq üçün qidasını əldə edir, digər sərvətlərdən isə müxtəlif məqsədlər üçün faydalanır. Ancaq insan təbiətdəki sərvətləri plansız surətdə mənimsədiyi zaman təbiətə zərər vurur.

İnsan – bu, torpağa qədəm qoymuş ən qüdrətli varlıqdır.

Sofokl
qədim yunan dramaturqu

İnsanın varlığı və sağlamlığı da, demək olar ki, ətraf mühitdən asılıdır. İnsanın təbiətə vurduğu ziyan birbaşa onun özünə vurduğu ziyana bərabərdir.

İnsan təbiətin təkamülünün nəticəsidir. Lakin təbiət qanunlarına uyğunlaşmayan yeganə varlıq da məhz insandır. Əvvəlki dövrlərlə müqayisə etsək, görərik ki, insanın təbiətdəki rolu tamamilə dəyişmişdir. Əvvəllər insanların təbiətə vura biləcəyi zərər adi bir canlının gücü çatacaq miqyasda ölçülürdüsə, bu gün planetin ali varlığı olan insan təbiətdə bütün silahlardan təhlükəli olan "ekoloji partlayışa" səbəb olacaq bir vəziyyət yaratmışdır. İnsanın yaratdıqları bu gün bütün təbiəti məhv edə bilmək gücünə malikdir. Atom bombasının* yaradılması, kimyəvi və bioloji silahların istehsalı, kənd təsərrüfatında istifadə olunan zərərli maddələr, zavodların buraxdığı zərərli qazlar təbiətə böyük ziyan vurur. II Dünya müharibəsində Amerikanın Yaponiyaya atdığı atom bombaları bunu əyani şəkildə sübut etdi. Bütün bunlara baxmayaraq, insan hələ də bir çox təbiət hadisələri qarşısında gücsüzdür. Son illərdə baş verən zəlzələlər, daşqınlar, sellər və s. buna misal ola bilər.

İnsanın təbiətdən asılılığı zaman keçdikcə dəyişmişdir. Əvvəllər insan təbiətə adi bir canlının təsir edə biləcəyi qədər təsir edə bilərdi. Lakin sonralar o, təbiəti dəyişməyə başladı. Bunun da təbiətə müsbət və mənfi təsiri vardır.

---

* Atom bombası – yüksək dağıdıcı gücü olan silah.

Xarıbülbül

Susuz səhralara su çəkməyə, şəhərlər salmağa, yollar çəkməyə, yararsız torpaqları məhsuldar torpaqlara çevirməyə, öncədən qırdığı meşələri bərpa etməyə, süni meşələr salmağa başlayır. Bununla da insan sanki yeni bir təbiət yaradır, lakin kifayətlənmir. Yeni bitki növləri, heyvan cinsləri yaradır və əhilləşdirir, nəsli tükənməkdə olan canlıları qorumaq üçün qoruq və yasaqlıqlar, milli parklar yaradır.

İndi Yer kürəsində insan fəaliyyətinə məruz qalmayan ərazi yoxdur. İnsan müəyyən qədər təbiətin qanunlarına təsir edə bilir. Lakin bu təsir bəzən fəlakətlərlə nəticələnir. Belə ki, sənaye və texnikanın inkişafı təbiətə daha çox ziyan vurur. Cəmiyyətin varlığı üçün iqtisadi inkişaf nə qədər vacib olsa da, bilməliyik ki, təbiət anadır, biz anamızı necə seviriksə, təbiəti də o cür sevməli, qorumalı və qayğısına qalmalıyıq.

Azərbaycanımızın təbiəti çox gözəl və əsrarəngizdir. Bizim hər birimiz bu gözəlliyi göz bəbəyimiz kimi qorumalıyıq. Ancaq təəssüflər olsun ki, vətənimizin ən gözəl guşələrindən biri olan Dağlıq Qarabağ bu gün düşmən tapdağı altındadır. Öz gözəlliyi ilə hamını heyran qoyan doğma yurd yeri və onun təbiəti – çəmənləri, meşələri, dağları, bulaqları "Bizi xilas edin" – deyə haray çəkir. Möcüzə hesab edilən xarıbülbülümüz Cıdır düzündə məhv olur, Topxana meşəsi vəhşicəsinə qırılır, Kəlbəcərdəki İstisuyumuzun, Şuşadakı Turşsuyumuzun suyunu düşmənlər içir. İşğal olunmuş torpaqlarımızı azad etmək həm dövlətimizin, həm də hər bir vətəndaşımızın vəzifəsidir.

Biz canımız, qanımız bahasına da olsa, bu dilbər guşələrimizi düşmən tapdağından xilas etməliyik!

Sual və tapşırıqlar:

1. İnsanın təbiətə vurduğu ziyanların siyahısını tərtib edin.
2. Sizə təbiəti qorumaq haqqında tədbirlər planı hazırlamaq tapşırılsaydı, ora nələri daxil edərdiniz? Siyahı tərtib edin.
3. İnsan nə üçün təbiəti dəyişən yeganə varlıq hesab olunur?
4. İnsan bitkiləri gübrələrlə qidalandırır. Bu gübrələrin zayanı varmı?
5. "Mən təbiəti qorumağa borcluyam" mövzusunda inşa yazın.

IV. TƏHLÜKƏSİZ HƏYAT

17. Sağlamlığın şərtləri
18. Gigiyena sağlamlığın şərtidir
19. Yoluxucu xəstəliklərdən qorunaq
20. Təhlükəsizliyimizi təmin edək
21. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq
22. Texnogen mənşəli qəzalardan qorunaq
23. Yol nişanlarına diqqət edək

17. Sağlamlığın şərtləri

Bizə doğma və əziz olan insanlarla görüşəndə və ya ayrılanda onlara cansağlığı arzulayırıq. Görəsən, nə üçün?

Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır.

Sizcə, hansı insanlar sağlam hesab olunur? Sağlamlığın şərtləri nələrdir?

Bəzən bədən çəkisinin artıq olması, hərəkət azlığı, düzgün qidalanmamaq, psixoloji gərginlik, siqaret və spirtli içkilərdən istifadə, yoluxucu xəstəliklərə tutulma və s. insanın sağlamlığını təhlükə qarşısında qoyur.

Sağlamlığımızı möhkəmləndirsək və qorusaq, uzun ömür sürər və fəal həyat tərzi keçirərik. Sağlam olmaq üçün aşağıdakılara əməl etmək vacibdir:

- ***şəxsi gigiyenaya və təmizliyə riayət etmək;***
- ***təmiz ətraf mühit;***
- ***zərərli vərdişlərdən uzaq olmaq;***
- ***düzgün istirahət etmək;***
- ***idmanla məşğul olmaq;***
- ***düzgün qidalanmaq;***
- ***reproduktiv sağlamlığı qorumaq;***
- ***tarazlaşdırılmış gün rejimi.***

Narkotik maddələr, spirtli içkilər və tütün məmulatlarına aludəçilik zərərli vərdişlər hesab olunur. Bu vərdişlər həm insanın orqanizminə, həm də bütövlükdə cəmiyyətə ziyan vurur.

Yoldaşlarınızla müzakirə edin:

İki insanı gözümüz önündə canlandıraq. Biri düzgün qidalanır, fiziki cəhətdən aktivdir, istirahətini düzgün qurur, siqaret çəkmir, spirtli içki və narkotikdən istifadə etmir. İkinci əlinə düşəni yeyir, az hərəkətlidir, gün ərzində 3 saat yatır və 2 qutu siqaret çəkir.



Erkən yaşlardan bədən tərbiyəsi və idmanla məşğul olmaq, orqanizmi möhkəmləndirmək olduqca vacibdir. İdman orqanizmi xəstəliklərdən qoruyur, sağlam saxlayır. Ona görə də bacardığınız qədər daha çox hərəkət edin, asudə vaxtlarınızı hərəkətli oyunlar oynayaraq təmiz havada keçirin. Lakin idman edərkən müəyyən qaydaları da unutmaq olmaz! Mütəxəssislərin məsləhətinə görə, idmana başlamazdan ən azı yarım saat əvvəl yemək-içməyi dayandırmalı və əvvəlcə kiçik hərəkətlərlə bədənin isinmə prosesi yerinə yetirilməlidir. Əgər bunu etməsəniz, sağlamlığınızla bağlı problemlər meydana çıxa bilər.

Fiziki tərbiyə sağlam inkişafa təkan verir, dözümlülüyü tənzimləyir, insanda müsbət emosiyalar yaradır.

Sağlamlığın 3 aspektini yadınıza salın.

"Reproduksiya" özünə bənzər orqanizmin yaradılması deməkdir. İnsanın həyatda ən vacib vəzifəsi nəsil artırmaq, özündən sonra bəşəriyyətə yeni varlıq bəxş etməkdir. Lakin bunun üçün o, fiziki və mənəvi cəhətdən sağlam olmalı, əlverişli yaşayış şəraiti ilə təmin olunmalıdır. Reproduktiv sağlamlığın təməli hələ uşaq yaşlarında qoyulur. Onu bütün həyat boyu qoruyub-saxlamaq lazımdır.

Günəş vannası – orqanizmi möhkəmləndirmək üçün əlverişli vasitələrdən biri hesab edilir. Havalar istilənən

kimi, yəqin ki, dənizə getmək və günəş vannası qəbul etmək fikrinə düşürsünüz. Həkimlər günəş vannasından müəyyən saatlarda və düzgün qaydada istifadə olunmasını əvəzedilməz müalicə növü hesab edirlər. Günəş şüası altında orqanizmdə D vitamini sintezi artır ki, bu da sizin sümükləriniz üçün olduqca əhəmiyyətlidir. Lakin günəş vannasından ifrat dərəcədə istifadə olunmamalıdır. Səhər evdən çıxıb axşama qədər dəniz kənarında, gün altında qalmaq müxtəlif xəstəliklərə, günəş yanıqlarına gətirib çıxarır. Günəş vannası qəbul etməzdən qabaq qoruyucu günəş kremindən istifadə etməli, çox ağır qida qəbul olunmamalı, çoxlu maye içilməlidir. Günəş vannası qəbulu orqanizmin daha çox maye itirməsinə səbəb olduğundan bədənin su itkisi dərhal bərpa olunmalıdır. Tərləmə ilə itirilən su bərpa olunmazsa, yorğunluq və baş ağrısı ilə nəticələnə bilər.

Təmiz havada gəzməyə vaxt ayırın.

Təmiz hava – sağlamlığı təmin edən ən vacib şərtlərdən biridir. Havada olan oksigen qazı orqanizm üçün əvəzolunmazdır. Təəssüf ki, şəhərlərdə hava zəhərli qazlarla çirklənir. Bu isə insan orqanizmi üçün təhlükə yaradır. Orqanizm çirkli hava ilə nəfəs aldıqda zəifləyir və xəstəliklərlə mübarizə aparmaq qabiliyyətini itirir.

Su – sağlamlıqdır. Həyat ilk dəfə suda əmələ gəlib. Bədənimizin 70-80%-ni də su təşkil edir. Biz qidalarımızı su ilə qəbul edirik. Lazımsız maddələr orqanizmdən su ilə çıxır. Su təmizlik mənbəyidir. Su vasitəsilə orqanizm möhkəmlənir.

Çimmək, üzmək, duş qəbul etmək, yaş dəsmalla bədəni silmək orqanizmi möhkəmləndirir.

Sağlamlığın vacib şərtlərindən biri də orqanizmi yoluxucu xəstəliklərdən qorumaqdır. Xəstəliklərin qarşısını almaq üçün peyvəndlərin çox böyük əhəmiyyəti vardır. Vaxtında edilən peyvəndlər bir çox yoluxucu xəstəliklərin qarşısını alır.

Peyvəndlərimizi vaxtında vurduraq.

Sağlamlığın tanış olduğumuz şərtlərinə əməl etsək, sağlam və gümrah olarıq.

Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmadan hər şey bir heçdir.
Artur Şopenhauer
alman filosofu

Sual və tapşırıqlar:

1. Hansı şəxsi gigiyena qaydalarına əməl olunmalıdır?
2. İdman nəyə görə sağlamlığın rəhni hesab olunur?
3. Günəş vannasının orqanizm üçün əhəmiyyəti nədir?
4. Günəş vannası qəbul edərkən hansı şərtlərə əməl olunmalıdır?
5. Cədvəldə verilmiş əlamətlərə uyğun olaraq, sağlamlığın hansı şərtlərinə əməl olunmadığını və bunun nəyə səbəb olacağını müəyyənləşdirin.

Müşahidə olunan hallar	Sağlamlığın şərti	Nəticəsi
Əli bütün günü dənizdə çimir və qumda uzanır.		
Akifin anası elmi işçidir. O, bütün gününü kompüter arxasında oturaq vəziyyətdə keçirir.		
Lalə 6-cı sinifdə oxuyur. O, gecə saat 12-yə qədər televizora baxır.		

6. Sağlam olmaq üçün nələr edirsiniz? Siyahı tərtib edin.

18. Gigiyena sağlamlığın şərtidir

Gigiyena* – insan sağlamlığını qorumaq haqqında elmdir. Hazırda insan sağlamlığının qorunması üçün bir çox qaydalar tərtib olunmuşdur. Bu qaydalar iki qrupa ayrılır: ümumi və şəxsi gigiyena qaydaları. Bu qaydalar hansılardır və onlara necə əməl olunmalıdır? Fikirləşin.

Şəxsi gigiyena qaydalarına əməl etmək hər birimiz üçün gündəlik vərdişə çevrilməlidir. Bu qaydaları yerinə yetirmək insanın özü üçün deyil, ətrafındakılar üçün də əhəmiyyətli dərəcədə vacibdir. Çünki gigiyena qaydalarına əməl etməyənlər bəzən yoluxucu xəstəliklərə tutulmaqla başqalarının da həyatını təhlükə qarşısında qoyurlar.



Skolioz

Müasir dövrümüzdə kompüterdən istifadə etməklə istədiyimiz məlumatı çox asanlıqla əldə edə bilirik. Lakin uzun müddət kompüter qarşısında oturanda otağın mikroiqlimi: temperatur, rütubət, səs-küy, elektrik və radiasiya sahəsi dəyişir, havada oksigenin miqdarı azalır. Belə mikroiqlimdə uzun zaman qaldıqda isə müəyyən dərəcədə əqli, emosional, görmə funksiyaları dəyişir, yorulma baş verir, orqanizmin yoluxucu xəstəliklərə qarşı müqaviməti azalır. Bundan əlavə, kompüter qarşısında çox və düzgün oturmadıqda onurğanın qeyri-normal əyriliklərinə (skolioz və qeyri-normal hala keçmiş kifoz və lordoz) təsadüf olunur. Bu isə daxili orqanların fəaliyyətinə öz mənfi təsirini göstərir.

Sinir sistemini qorumaq bizim üçün çox vacibdir. Sinir sisteminin gərginliyi onun yorğunluğuna səbəb olur. Sizin də dərslərdən sonra istirahət etməniz vacibdir ki, zehni yorğunluğunuz aradan qalxsın. Fasiləsiz oxumaq orqanizmi zəiflədir və yaddaşı pozur. Buna görə də mütləq dərslərinizi hazırlayarkən arada fasilə verin. Daha sonra təmiz havada gəzin, idmanla məşğul olun, oyunlar oynayın.

Ümumiyyətlə, oturduğunuz qapalı məkanlarda (sinif otağı, yeməkxanalar və s.) otağın havasını tez-tez dəyişsəniz, düzgün

Normal onurğa sütunu

Qeyri-normal kifoz

* Gigiyena – yunan dilində "sağlamlıq" deməkdir.

oturuş qaydalarına əməl etsəniz, sağlamlığınızı qorumuş olarsınız.

Təmizlik sağlamlıqdır.

- ***Konservləşdirilmiş məhsulları yeyərkən ehtiyatlı olun.***
- ***Mağazadan, yeməkxanadan alınan qidaların istehsal tarixlərinə diqqətlə baxın.***
- ***Ayaqüstü yeməklərdən uzaq olun.***
- ***Təsadüfi su mənbəyindən su içməyin.***
- ***Ərzaqları üstü açıq saxlamayın.***

İdmanla məşğul olmaq skelet və əzələləri möhkəmləndirir, qan dövranını yaxşılaşdırır, düzgün qaməti formalaşdırır. Parta arxasında düzgün oturmamaq, çiyinləri sallamaq, beli əymək, döş qəfəsini batıq vəziyyətdə saxlamaq dayaq-hərəkət aparatına mənfi təsir göstərir, onurğanın qeyri-normal əyriliklərinə səbəb olur.

Gigiyenik qaydalara əməl edilmədikdə də həzm sistemi xəstəlikləri baş verir. Bunun qarşısını almaq üçün qidalarımız keyfiyyətli və təzə olmalıdır.

Düzgün və vaxtlı-vaxtında qidalanma uşaqların inkişafı və sağlamlığının ilkin şərtlərindən biridir. Qidalanma beynin fəaliyyətinə müsbət təsir göstərir. Düzgün qidalanma müxtəlif xəstəliklərə qarşı orqanizmin davamlılığını artırır.

Ümumiyyətlə, gündəlik qidalanmada müxtəlif ərzaqlardan istifadə olunmalıdır. Buna görə də qida rasionunuza meyvə və tərəvəz, ət, balıq və süd məhsullarını daxil etməlisiniz. Qidanın hər gün eyni vaxtda qəbul edilməsi və yaxşı çeynənməsi də sağlamlıq üçün vacibdir.

"Mən düzgün oturmuşam"

Yoluxucu xəstəliklərdən qorunmaq üçün əməl edəcəyimiz qaydalar:

- ***Başqalarının geyimlərindən, dəsmalından istifadə etməməyə çalışın;***
- ***Xəstələrlə təmasda olarkən qoruyucu vasitələrdən istifadə etməli;***
- ***Xəstə yatan otağın havası tez-tez dəyişdirilməlidir;***
- ***Tozu nəm əski ilə silmək məsləhətdir.***

Kitab oxuyarkən göz qüsuru əmələ gəlməsin deyə, əməl edəcəyimiz qaydalar:

- ***Kitabı oxuyarkən onu gözə yaxın tutmamağa çalışın;***
- ***İşığın soldan düşməsi vacibdir;***
- ***Nəqliyyatda kitab oxumamağa çalışın;***
- ***Kitab oxuyarkən işığın zəif olmamasına çalışın.***

Təmizlik, havanın temperaturu və rütubəti, otağın işıqlanması da sizin üçün olduqca vacibdir. Yuxarı siniflərə keçdikcə görmə qabiliyyəti dəyişir. Buna görə də kompüter olan otaqlar, zallar kifayət qədər təbii işıqlandırılmalıdır. Otaqlarda və ya kompüter zallarında işləyən zaman havanın tez-tez və lazımi qədər dəyişdirilməsi vacibdir.

İnsanın dərisində müxtəlif yoluxucu xəstəliklər inkişaf edib onu xəstələndirə bilir. Buna müxtəlif göbələk xəstəliklərini misal göstərmək olar.

Dəri xəstəlikləri zamanı qaşınma, ağrı hisləri xəstələri narahat edir, müxtəlif iltihabi proseslər, şişlər, tər və piy vəzlərində pozğunluqlar yaranır. Belə xəstəliklərə yoluxmamaq üçün nə etməli?

Dəri xəstəliklərinə yoluxmamaq üçün aşağıdakılara əməl olunmalıdır:

- *Sahibsiz ev heyvanları ilə oynamayın;*
- *Dənizdə və hovuzda çimdikdən sonra duş qəbul edin;*
- *Başqalarının darağından istifadə etməyin;*
- *Başqalarının geyim əşyalarından istifadə etməyin;*
- *Əl və dırnaqlarımızı təmiz saxlayın;*
- *Dərini qıcıqlandıran vasitələrdən istifadə etməyin və s.*

Sual və tapşırıqlar:

1. Şəxsi gigiyena qaydaları hansılardır?
2. Sinfinizdəki uşaqların əməl etməli olduqları gigiyena qaydalarını tərtib edin.
3. Məktəbdəki bütün şagirdlərin gigiyena qaydalarına əməl etmələri üçün hansı tədbirin keçirilməsini təklif edərdiniz? Bu tədbirdə hansı gigiyena qaydalarına xüsusi ilə toxunulacağını müəyyənləşdirin. Bu qaydalarla bağlı müvafiq buklet hazırlayın.
4. Sinif yoldaşınız məktəbə dırnaqları uzun, əlləri çirkli gəlmişdir. Bu zaman onu hansı təhlükələr gözləyə bilər?
5. Dəftərinizdə aşağıdakı cədvəli çəkib tamamlayın:

Sağlamlığa təsir edən amillər	***Orqanizmə təsiri***
Dişlərini fırçalamamaq	
Düzgün qidalanmamaq	
Normal yuxu yatmamaq	
Təmiz havada olmamaq	
Nəqliyyatda kitab oxumaq	
Dırnaqları kəsməmək	

19. Yoluxucu xəstəliklərdən qorunaq

Anası Aydanı üzgüçülük hovuzuna apardı. Hovuzun rəhbərliyi ondan Aydanın sağlamlığı haqqında arayış istədi. Sizcə, bu sənədə nə ehtiyac var idi?

Yoluxucu xəstəliklər təhlükəli olub, bir insandan digərinə keçir. Bu xəstəliklərin çoxunu mikroorqanizmlər törədir. Törədicilər insan orqanizminə daxil olaraq orada xəstəliyə səbəb olur.

? ***Verilmiş xəstəlikləri törədicilərinə əsasən qruplaşdırın:***
angina, vəba, Sibir yarası, QİÇS, hepatit, vərəm, qrip, qızılca, çiçək.

Milçəklər 70-ə qədər yoluxucu xəstəlik yayır.

Yoluxucu xəstəliklər insanı elə ağır vəziyyətə gətirib çıxara bilər ki, bu da sonda ölümlə nəticələnə bilər. Bu xəstəlikləri törədənlər orqanizmə hava-damcı, su və qida vasitəsilə, xəstə insanların əşyalarından istifadə etməklə, qanla, həşəratlar dişlədikdə və yaxud sancdıqda daxil ola bilir.

Yoluxucu xəstəliklərin bir qismini ***viruslar*** törədir. Dünya səhiyyəsi virus xəstəliklərinə qarşı nə qədər mübarizə aparsa da, onlar azalmaq əvəzinə artır. Xəstəliklər haqqında azməlumatlı və diqqətsiz olduğumuz zaman onlar insan həyatını sona yetirəcək faciəyə çevrilə bilir. Mütəxəssislər hesab edirlər ki, virusların yoluxma yolları müxtəlifdir. Məsələn, qrip virusları hava-damcı yolu ilə yoluxur. Belə xəstələrin əşyalarından istifadə etdikdə, xəstə ilə eyni otaqda olduqda insan qrip xəstəliyinə yoluxur. Bir çox virus xəstəliklərinin

Qripə yoluxmusunuzsa:

- *Bir neçə gün yataq rejimində qalmağa çalışın;*
- *Məktəbə getməyə çalışmayın, çünki ətrafdakıları da yoluxdura bilərsiniz;*
- *Ətrafdakıları yoluxdurmamaq üçün ağzınızı örtülü saxlamağa çalışın;*
- *Asqırdıqda mütləq ağız və burnunuzu örtməyə çalışın.*

ən geniş yayıldığı məkanlar isə stomatoloji kabinetlər, gözəllik salonları, üzmə hovuzları və sairədir. Ona görə də insan bədəni ilə təmasda olan hər bir alət mütləq sterilizə olunmalıdır. Bunun üçün stomatoloji kabinetlərdə, gözəllik salonlarında avtoklavın (alətləri sterilləşdirmək üçün cihaz) olması vacibdir. Siz də diş həkiminə, gözəllik salonlarına gedərkən bu barədə sual verməkdən çəkinməyin. Çünki QİÇS və hepatit xəstəliklərinin, eyni zamanda göbələk xəstəliklərinin yayılmasında gözəllik salonlarının rolu çox böyükdür. Bu işdə tədbirli olmaq təkcə bu müəssisələrdə çalışanların yox, eyni zamanda bizim də məsuliyyətimizdir.

Qurd xəstəlikləri də yoluxucu xəstəliklərə aiddir. Qurd xəstəliklərinə (helmintozlar) 3-12 yaşlarında uşaqlar daha çox yoluxurlar. Hətta orqanizmdə, eyni zamanda, bir neçə növ qurd parazitlik edə bilər. Bu isə immunitetin zəifləməsinə, allergiyalara, mədə-bağırsaq və sinir sistemi pozğunluqlarına səbəb olur, orqan və toxumaları zədələyir, fiziki və əqli inkişafı ləngidir. Qurd xəstəliklərini askarid, exinokokk, öküz soliteri və s. törədir ki, onlar da insanlara ən çox qidalanma yolu ilə yoluxurlar.



Exinokokk



Askarid

Öküz soliteri

Birhüceyrəli heyvanların törətdiyi xəstəliklər də insanların arasında geniş yayılır. Dizenteriya amöbü, malyariya paraziti, lyambliya və s. törətdiyi xəstəliklərdən qorunmağa çalışmalıyıq.

Vərəm çöpləri

Malyariya paraziti, tripanosom və leyşmaniyalara cücülər sancdıqda, dizenteriya amöbü və lyambliyalara isə həzm yolu ilə yoluxmaq olar.

Bakteriyaların törətdiyi xəstəliklərdən vərəm ən çox yayılmış xəstəlikdir. O, damcı və toz infeksiyalıdır. Bu xəstəliyə qarşı aparılan mübarizə tədbirlərindən biri tozla mübarizədir. Siz də evdə və məktəbdə toz qaldırmamağa, belə xəstələrlə təmasda olarkən qoruyucu vasitələrdən istifadə etməyə çalışın. Xəstələrin əşyalarından qətiyyən istifadə etməyin.

Yoluxucu xəstəliklərə yoluxma eyni zamanda yaxşı yuyulmamış meyvə və tərəvəzdən, çirkli sudan, natəmiz qablardan istifadə etdikdə, çirkli əllərlə ağıza təmas etdikdə, əllə yemək, dırnaqları dişləyib-udmaq kimi pis vərdişlər və s. yollarla baş verir. Buna görə də yaşadığınız evin təmizliyinə ciddi nəzarət etməli, kiçik bacı və qardaşlarınıza isə gigiyena qaydalarına əməl etməyi öyrətməlisiniz. Gigiyena qaydalarına riayət edib, xəstələndikdə həkimə vaxtında müraciət etsəniz, yoluxucu xəstəliklərdən qoruna bilərsiniz. İnsan öz sağlamlığının qoruyucusudur və bu sağlamlıq uğrunda mübarizə aparmalıdır.

Sual və tapşırıqlar:

1. Qurd xəstəlikləri nə üçün yoluxucu xəstəliklərə aid edilir? Fikrinizi əsaslandırın.
2. Yoluxucu xəstəliklərə yoluxma yollarını müəyyənləşdirin.
3. Siz Səhiyyə Nazirliyinin əməkdaşları olsaydınız, əhalinin yoluxucu xəstəliklərdən qorunması üçün hansı profilaktik tədbirlər görməyi planlaşdırardınız?
4. İnsanların yoluxucu xəstəliklərdən qorunması yollarını əks etdirən plakat hazırlayın.
5. Dəftərinizdə cədvəl çəkin və verilən xəstəliklərə görə onu tamamlayın: vərəm, dizenteriya, exinokokkoz, çiçək, qrip, hepatit, malyariya, askaridoz.

Xəstəlik	Törədicisi	Qorunma yolları

6. Ərzaqları saxlamaq qaydalarını müəyyənləşdirin.
7. “Yuyulmamış ərzaqlardan istifadə etməyin, onların üstünü açıq saxlamayın”. Yazılanlara əməl etməsək, hansı xəstəliklərə yoluxarıq?

20. Təhlükəsizliyimizi təmin edək

Paltaryuyan maşın, elektrik plitəsi, ütü, tozsoran və s. cihazlar elektrik-məişət avadanlıqlarıdır. Bu cihazlar bizim gündəlik həyatımızda işimizi asanlaşdırsa da, bəzən çox təhlükəli olurlar. Bu təhlükələr hansılardır? Bu zaman biz necə davranmalıyıq?

Qəflətən və gözlənilmədən baş verən yaralanmalar, həyat itkisinə və ya maddi itkilərə səbəb olan hadisələr qəza adlanır. Müasir dövrdə elm, texnika və texnologiyanın inkişafı ilə yanaşı, qəza hallarının da sayı durmadan artır.

Qəzalar maddi ziyanla yanaşı, insan həyatı üçün də təhlükə törədir. İnsan sağlamlığına zərər yetirən qəzalar yolda, işdə, küçədə, hətta evdə də baş verə bilər. Bir çoxlarımız elə hesab edirik ki, mənzillərimiz ən təhlükəsiz yerdir. Lakin tez-tez qəza halları ilə məhz evdə olarkən üzləşirik.

Evdə yaranan qəzalar hansı səbəblərdən baş verir? Cədvəli tamamlayın.

Evdə yaranan qəzalar	*Yıxılma və zərbələr*	*Kəsiklər*	*Zəhərlənmə*	*Elektrik vurması*	*Yanıqlar*
Qəzaların səbəbləri					

Məişətdə baş verən qəzalar zamanı ən çox uşaqlar və yaşlılar zərər çəkirlər. Ona görə də aşağıdakılara xüsusi diqqət yetirməyiniz məsləhətdir:

- ***Ailədə və ətrafınızda təzəcə gəzməyə başlayan uşaqlara xüsusi diqqət yetirin;***
- ***Evdə kəsici və deşici alətlərlə ehtiyatla davranın, istifadədən sonra yerinə qoyun;***
- ***Mətbəxdə valideynlərinizə kömək edərkən kimyəvi maddə və dərmanlardan uzaq olun;***
- ***Evdə yaşlılar varsa, çalışın ki, otaq tam və aydın işıqlandırılmış olsun, pilləkənləri düşərkən onlara yardım edin;***
- ***Zəhərlənmələrin qarşısını almaq üçün vaxtı keçmiş qida və dərmanları dərhal atın;***
- ***Boyunuz çatmayan yerlərə qalxıb heç nə götürməyə çalışmayın;***
- ***Baş verə biləcək fövqəladə hallar zamanı "101" və "112" xidmətlərinə müraciət edin.***

Televizor yanarsa:

- ***Televizoru cərəyandan ayırmaq və ya mənzilin elektrik təchizatını dayandırmaq;***
- ***Elektrik enerjisindən ayırdıqdan sonra hələ də yanma davam edərsə, televizoru qalın parça ilə örtmək;***
- ***Qapı və pəncərəni möhkəm bağlamaq;***
- ***Evi tərk etmək;***
- ***Yanğınsöndürmə xidmətinə xəbər vermək.***

Siz artıq beşinci sinifdən bilirsiniz ki, elektrikin insana təsiri cərəyanın gücündən və insanla onun "təmas" şəraitindən asılıdır. Bəs bu zaman hansı təhlükəsizlik qaydalarına əməl etməliyik?

- ***Üstüaçıq naqil gördükdə böyüklərə xəbər verin;***
- ***Şəbəkədən elektrik cihazlarını ayırarkən naqildən tutmayın;***
- ***Şəbəkəyə yalnız bir elektrik əşyası qoşun;***
- ***Uzadıcıdan istifadə etdikdən sonra əvvəlcə onu şəbəkədən ayırın, sonra yığın;***
- ***Cihazların naqillərinin qapı, mebel və s. əşyaların arasında qalmamasına, qaz kəmərlərinə, istilik batareyalarına toxunmamasına çalışın.***

Qaydalara riayət olunmadıqda bu, yanğınla nəticələnə bilər.

Fövqəladə halların bir qismi də küçələrdə baş verir. Belə təhlükəni insanın vəfalı dostu olan itlər də yarada bilir. Biz heyvanlara qayğı göstərməli, onları incitməməliyik. Ancaq bəzən küçədəki sahibsiz itlər çox təhlükəli ola bilər. Əgər it sizə hücum edərsə, bundan qorunmaq üçün aşağıdakıları bilməyiniz məsləhətdir:

- ***Əlinizdə çətir və ya çanta varsa, çalışın onlarla itin qabağını kəsəsiniz;***
- ***Arxanızı itə çevirməyin;***
- ***İlk növbədə, boğazınızı mühafizə edin;***
- ***Əlinizi qabağa uzadın, əgər varsa, əlinizə şərfinizi dolayın;***
- ***Əgər yıxılmısınızsa, üzüüstə çevrilin, əllərinizlə boynunuzu qoruyun.***

Nəqliyyat vasitələrinin yaratdığı qəzalar da fövqəladə hadisələrə aiddir. Belə hadisələr nəticəsində həm nəqliyyat vasitələrinin içində olanlar, həm də piyadalar zərər çəkirlər. Piyadaların riayət etməli olduqları qaydalarla siz artıq beşinci sinifdə tanış olmusunuz. İctimai yerlərdə ola biləcək digər təhlükələr və bu təhlükələr zamanı davranış qaydalarına nəzər salaq:

Terror təhlükəsi ola bilər:

- *Gözlənilməz yerdə məftil çəkilməsini müşahidə etdikdə;*
- *Metro stansiyasında, nəqliyyatda və yaxud binanın girişində naməlum bağlama və ya əşya gördükdə;*
- *Maşınların altında sallanan məftil gördükdə;*
- *Yolun kənarında qazılmış çuxurlar gördükdə;*
- *Naməlum ünvanlardan gələn bağlama və ya məktub olduqda.*

Davranış qaydaları:

- *Əşyalara toxunmayın;*
- *Bu haqda lazımi təşkilatlara və şəxslərə xəbər verin.*

XXI əsrin fəlakəti olan terror hazırda geniş yayılmışdır. 2001-ci il 11 sentyabr tarixində Nyu-Yorkda dəhşətli terror aktı baş vermişdir. Hadisə zamanı terrorçular tərəfindən idarə olunan təyyarələr 2 göydələnə çırpılmış və bu da çoxsaylı insan itkisinə səbəb olmuşdur. Ölkəmizdə də erməni terror təşkilatları tərəfindən azərbaycanlılara qarşı bir çox terror aktı törədilmişdir. Bu terror aktları zamanı zərərçəkənlərin əksəriyyəti qocalar, qadınlar və uşaqlar olmuşdur.

- ***Küçədə tanımadığınız adamlarla ünsiyyət qurmayın;***
- ***Axşamlar küçəyə tək çıxmayın, adam olmayan, zəif işıqlandırılmış küçələrdən uzaq gəzin;***
- ***İnsanların çox toplaşdığı yerlərdən uzaq olun;***
- ***Sizə təhlükəli görünən insanlardan və ya əşyalardan uzaqlaşmağa çalışın. Zərurət olduqda yaxınlıqda olan polis işçisinə və ya mühafizə müəssisəsinin əməkdaşına müraciət edin.***

Bakıda 30 aprel 2009-cu il tarixdə Azərbaycan Dövlət Neft Akademiyasına silahlı basqın edilmişdir. Səhər saatlarında odlu silahla silahlanmış şəxs Akademiyanın binasına daxil olmuş, birinci mərtəbədən yuxarı mərtəbəyədək qarşısına çıxan müəllim və tələbələri güllələmişdir.

Keçən əsrin 90-cı illərində Bakı metropolitenində bir neçə terror aktı törədilmişdir.

Bizim hər birimiz hər addımda baş verəcək təhlükələrə hazır olmalı və bu zaman nə edəcəyimizi bilməliyik.

Sual və tapşırıqlar:

1. Evdəki qəzaların başvermə səbəbləri hansılardır?
2. Evdə baş verən məişət qəzalarından uzaq olmaq üçün hansı qaydalara əməl olunmalıdır?
3. İctimai yerlərdə baş verən qəzalar hansılardır?
4. İctimai yerlərdə baş verən qəzalardan uzaq olmaq üçün hansı qaydalara əməl olunmalıdır?
5. Məişətdə təhlükəsiz davranış qaydalarına aşağıdakılardan hansılar aiddir?

a) axşamlar tək küçəyə çıxmamaq;
b) boyunuz çatmayan yerlərdən qalxıb heç nə götürməmək;
c) adam olmayan, zəif işıqlandırılmış küçələrdən uzaq gəzmək;
d) rozetkaya bir neçə elektrik cihazı qoşmamaq;
e) insanların çox toplaşdığı yerlərdən uzaq olmaq;
f) kəsici və deşici alətlərlə ehtiyatla davranmaq, istifadədən sonra yerinə qoymaq.

6. Kinoteatrda, əyləncə mərkəzlərində, metroda hansı təhlükəli hallarla rastlaşa bilərsiniz və bu zaman hansı təhlükəsiz davranış qaydalarına əməl etməlisiniz?
7. Aşağıdakı şəkillərdə göstərilən fövqəladə hadisələrdən necə qorunmaq olar? Fikrinizi əsaslandırın.

1

2

3

4

5

6

21. Təbiətdəki təhlükəli hadisələrdən qorunaq

1139-cu ildə Gəncədə baş vermiş zəlzələ nəticəsində Kəpəz dağının bir hissəsi uçaraq Ağsu çayının qarşısını kəsmiş və Göygöl yaranmışdır. XX əsrin əvvəllərində (1920) 100000 nəfər insanın ölmünə səbəb olan ən dağıdıcı sürüşmə Çinin Qansu əyalətində baş vermişdir.

Planetimizdə ən böyük sürüşmə (çəkisi 50 milyard ton, həcmi 20 kub kilometr) eramızın əvvəlində İranda Səidmarex çayının hövzəsində baş verib.

Yantszı çayında daşqınlar (1911, 1931, 1954) zamanı aclıq nəticəsində 60 milyon insan zərər çəkib. 1911-ci ildə 100 min insan tələf olub.

Bu faktlar sizin yadınıza nəyi salır?

Sizin fövqəladə hadisələr haqqında müəyyən qədər məlumatınız var. Zəlzələ, sel, daşqın, sunami, yanğın, ildırım çaxması, sərt şaxtalar, güclü istilər, torpaq sürüşməsi, vulkan, radioaktiv maddələrin yayılması, epidemiyalar (yoluxucu xəstəliklərin yayılması), nəqliyyat qəzaları və s. bu kimi fəla-

Təbii fövqəladə hadisələr

- zəlzələ
- sel
- daşqın
- sunami
- yanğın
- ildırım çaxması
- sərt şaxtalar
- güclü istilər
- torpaq sürüşməsi
- vulkan
- epidemiyalar

Texnogen fövqəladə hadisələr

- radioaktiv çirklənmə
- kommunal sistemlərdə qəzalar
- dəm qazından zəhərlənmə
- yanğın
- partlayış
- yol qəzaları

Zəlzələnin fəsadları

- dağıntı
- sürüşmələr
- tələfat

kətlər insan həyatı üçün böyük təhlükə yaradır. Fövqəladə hadisələr təbii və texnogen olmaqla iki qrupa ayrılır.

Bu cür fövqəladə hadisələr zamanı hamımız necə davranacağımızı bilməli və ekstremal vəziyyətdə qaydalara riayət etməliyik.

Respublikamızın ərazisi fəal seysmik zonada yerləşdiyindən burada hər an zəlzələ təhlükəsi gözlənilə bilər. Seysmik zonalar aşağıdakılardır: Böyük Qafqazın cənub yamacı, Naxçıvan, Yuxarı Qarabağ və Gəncə-Qazax əraziləri.

Zəlzələlərin başvermə ehtimalı



Zəlzələ baş verərsə, insanlar nə etməli, nəyi bilməlidirlər?

Tarix boyu baş verən zəlzələlərin təhlili sübut edir ki, bu təbiət hadisəsindən qorunmağın əsas yolu adamların fəlakət baş verdiyi anda özlərini itirməməsidir. İlk təkanları hiss edən kimi heç bir vahiməyə düşmədən, səsküy və qışqırtı salmadan həm özünüzə, həm də ətrafdakılara kömək göstərə bilərsiniz. İndi isə bunu necə edəcəyinizi biləcəksiniz:



- *Yeraltı təkanları hiss edən kimi dərhal mənzilin və otağın qapısını açın. Zəlzələ nəticəsində divarların əyilməsindən giriş qapıları pərçimlənir ki, bu da sonradan onu açıb otaqdan çıxmağa imkan vermir;*
- *Əgər otaqdasınızsa, təcili olaraq təhlükəsiz yerə keçin. Masanın və ya çarpayının altına girin. Otağın əsas divarına yaxın olan daxili küncündə durun;*
- *Zəlzələ zamanı ən çox binanın xarici divarları uçduğundan heç vaxt otağın xarici divarına yaxın yerdə, xüsusilə də otağın ortasında durmayın;*
- *Pəncərələrdən, yerindən tərpənən və yıxıla bilən ağır əşyalardan, məsələn, soyuducudan, mebeldən və s. uzaq dayanın;*
- *Qaçaraq binadan çıxmayın. Yuxarıdan divarboyu düşən qırıntılar çox təhlükəli olur;*
- *Çoxmərtəbəli binanın içərisindəsinizsə, ən yaxşısı elə oradaca qalmaqdır. Pilləkənə çıxmağa və liftə minməyə tələsməyin. Unutmayın ki, zəlzələ vaxtı ən çox lift və pilləkən sıradan çıxır.*

Sel – dağ çaylarının yatağında intensiv yağışın, buz və mövsümi qar ərimələrinin nəticəsində gözlənilmədən yaranan palçıqlı və daşlı-palçıqlı axındır. Sel su hövzələrinin dağılmasından, zəlzələ və vulkanlardan sonra da yarana bilər. İnsanlar, yaşayış yerləri, mühəndis və yol qurğuları sel və daşqınlar zamanı fəlakətlə üzləşə bilərlər.

Daşqın – çayların yataqlarının su ilə tam dolması nəticəsində suyun daşaraq ətraf əraziləri basmasıdır.

Sel və daşqın zamanı aşağıdakılara əməl etmək vacibdir:

- *Yamaclarla 50-100 m-dən yuxarı qalxın. Sellə birlikdə həyat üçün təhlükəli olan ağır daşlar, təhlükəli materiallar gələ bilər;*
- *Açıq ərazidəsinizsə, dərhal yüksək bir yerə çıxın;*
- *Su yatağı olan və ya çuxur bir yerdəsinizsə, dərhal həmin ərazini tərk edin;*
- *Sel sularının toplandığı bölgələrdə avtomobildən istifadə etməyin, hər hansı bir qəza meydana gəlibsə, avtomobili dərhal tərk edin;*
- *Elektrik xətlərindən uzaq durun, elektrik vura bilər;*
- *Hərəkətli sularda ağacdan istifadə etməklə yeriyin;*
- *Müəyyən miqdarda quru qida və su, ailənizin ehtiyacı olduğu dərmanları götürün;*
- *Sel suları ilə çirklənmiş yeməkləri yeməyin;*
- *Quyulardan götürülən sular analiz edildikdən sonra istifadə edilə bilər;*
- *Binada qaz sızıntısı olduğunu hiss etdikdə, hər hansı bir halda işıqdan istifadə etməyin.*

Fövqəladə Hallar Nazirliyi ekstremal vəziyyətlərdə necə davranmanızı bilməniz üçün "Özünə və başqalarına kömək etməyi bacar" adlı kitab çap etdirmişdir.

Daşqın zamanı mümkün olduğu qədər yuxarı mərtəbəyə, çardağa, hündür ağaclara, evin damına çıxın. Kiçik ağaclara, dirəklərə çıxmayın, axın onları yuyub apara bilər. Su basmış zonanı tərk edə bilməsəniz, mümkün olan bütün siqnalları verməklə evin damında kömək gözləyin. Əgər suya düşsəniz, əyninizdə olan ağır paltarları, ayaqqabını çıxarın, yaxınlıqda olan əşyalara doğru üzün və kömək gözləyin.

Sürüşmə – ağırlıq qüvvəsinin təsiri altında yumşaq dağ süxurunun eniş üzrə düşməsidir. Sürüşmə süxurların gil qatından, ərazinin meyilliliyindən və rütubətlənmə dərəcəsindən asılıdır. Torpaq sürüşmələri dağlıq və seysmik bölgələrdə tez-tez meydana gələn təbii hadisədir. Sürüşmə yaşayış və istehsalat binalarının dağılmasına və çökməsinə, boru kəmərlərinin və elektrik ötürücülərinin sıradan çıxmasına, insanların zərər çəkməsi və həlak olmasına səbəb ola bilər. Sürüşmənin ilk əlamətləri çatların əmələ gəlməsi, binaların qapı və pəncərələrinin sıxılması, ərazidə su sızmasıdır. Bəs bu zaman nə etməli?

- *Sürüşmə təhlükəsi haqqında məlumat alan kimi elektrik və qaz cihazlarını söndürün, suyu bağlayın;*
- *Sürüşmənin sürəti aşağıdırsa, əvvəlcədən hazırlanmış məkana gedin. Özünüzlə sənədlərinizi, qiymətli əşyalarınızı, geyim və ərzaq götürməyi də unutmayın;*
- *Sürüşmə bölgəsindən uzaqlaşmaq üçün lazımi vaxtınız yoxdursa, içəridə qalın. Möhkəm əşyalardan tutub bükülü uzanın;*
- *Torpaq sürüşməsinin və ya palçıq axıntısının gəldiyi yolun üzərində dayanmayın;*
- *Ətrafınızda yaşayan insanlara torpaq sürüşməsinə qarşı xəbərdarlıq edin;*
- *Radio və digər əlaqə vasitələri kimi kütləvi informasiya vasitələri ilə sizə ediləcək xəbərdarlıqları dinləyin və deyilənləri tətbiq edin;*
- *Əşya götürmək üçün zərər çəkmiş binalara girməyin.*

Tufan və ildırım çaxması da təhlükəlidir. İldırım zərbəsi, ilk növbədə, ən hündürdə olan obyektə (ağac, dirək və s.) dəyir. Hər il dünyada ildırım vurmasından insanlar həlak olur.

- *Qığılcımdan sonra göy gurultusu müşahidə olunarsa, ildırım o zaman təhlükəlidir. Bu halda pəncərə, qapı və nəfəslikləri bağlayın, mümkün qədər televizor, radio və digər elektrik cihazlarını söndürün. Sobanı yandırmayın;*
- *Telefonla danışmayın: ildırım bəzən simlərin üzərinə də düşür;*
- *Əgər meşədəsinizsə, meşənin alçaq ağaclıq yerinə sığının. Hündür ağacların, xüsusilə şam, palıd və qovaq ağacının yanında gizlənməyin. Su hövzəsi, yaxud onun sahilində dayanmayın. Sahildən kənarlaşın, hündür yerdən aşağı düşün;*
- *Düzənlikdə və ya daldalanmağa yer olmayan bir ərazidəsinizsə, yerə uzanmayın. Bununla bütün bədəninizi elektrik cərəyanının təsiri altında qoyursunuz. Dayaz bir yerdə, yarğanda və ya digər təbii bir dərinlikdə əyləşin, əllərinizlə ayaqlarınızdan tutun;*
- *Tufan zamanı idman alətlərindən istifadə edirsinizsə, dərhal dayanın. Metal əşyaları kənara qoyun və onlardan 20-30 metr aralıda dayanın;*
- *Əgər tufan sizi avtomobildə yaxalayıbsa, maşından düşməyin. Pəncərə şüşələrini qaldırın və antenanı aşağı salın.*

Çovğun – güclü küləklə qarın sovrulmasıdır. Əgər güclü çovğun haqqında məlumat almısınızsa:

- *Qapı və pəncərələri, çardağın qapılarını və nəfəslikləri bağlayın, pəncərələrin şüşələrini kağız lent ilə yapışdırın, su, ərzaq, dərman ehtiyatı, fənər, lampa, şam tədarükü görün, batareya ilə işləyən radioqəbuledicilər hazırlayın.*
- *Çovğuna və ya qar uçqununa düşsəniz, çalışın qayaların, böyük ağacların gövdəsinin altında üzüüstə yerə uzanıb başınızı tutun (daş və ya buz parçalarından qorunmaq üçün), paltarınızla ağzınızı örtüb nəfəs alın.*
- *Avtomobillə yalnız geniş yollarda və şoselərdə hərəkət etmək olar. Maşını tərk etməyin, yatmayın, maşının mühərriki işləyirsə əmələ gələn dəm qazının sizi zəhərləməməsi üçün pəncərəni bir qədər açın ki, dəm qazından boğulmayasınız.*

Sual və tapşırıqlar:

1. Fövqəladə hadisələri nə üçün qruplaşdırırlar?

2. Aşağıda göstərilənlərdən təbii fövqəladə hadisələri seçin və bunlardan hansılarının baş verməsi zamanı eyni davranış qaydalarına əməl olunacağını müəyyənləşdirin:

Kommunal sistemlərdə qəzalar, zəlzələ, sel, sunami, radioaktiv çirklənmə, daşqın, dəm qazından zəhərlənmə, partlayış, yol qəzaları, ildırım çaxması, sərt şaxtalar, yanğın.

3. Fövqəladə hadisələri, yarana biləcək təhlükəni və bu zaman davranış qaydalarını cədvələ uyğun yazın.

Fövqəladə hadisələr	Yarana biləcək təhlükə	Davranış qaydaları
çovğun		
ildırım çaxması		
zəlzələ		
sel		

4. Verilmiş əlamətlər hansı təbii fövqəladə hadisələr zamanı müşahidə olunan davranış qaydalarıdır? Cədvəli tamamlayın.

Davranış qaydaları	Fövqəladə hadisələr
palçıq axıntısının gəldiyi yolun üzərində dayanmayın	
dərhal yüksək bir yerə çıxın	
qayaların, böyük ağacların gövdəsinin altında üzüüstə yerə uzanıb başınızı tutun	

22. Texnogen mənşəli qəzalardan qorunaq

Radioaktiv çirklənmə, kommunal sistemlərdə qəzalar, dəm qazından zəhərlənmə, yanğın və partlayış, yol qəzaları, şüalanma və sairənin texnogen qəzalar olduğunu bilirik. Siz artıq təbii mənşəli fövqəladə hadisələrlə tanış olduğunuz zaman 112 nömrəli telefon xidmətindən istifadə edəcəyinizi, bu qəzalar zamanı hansı davranış qaydalarına əməl etməli olduğunuzu bilirsiniz. Bəs texnogen mənşəli qəzalar zamanı necə davranacağınızı deyə bilərsinizmi?

Ətraf mühitin ən təhlükəli çirklənməsi hesab olunan ***radioaktiv çirklənmə*** fövqəladə hadisədir.

Çox vaxt bu hadisəni "çıraqdakı cinə"* də bənzədirlər. Çünki atom enerjisindən dinc məqsədlərlə istifadə olunur. Lakin atom enerjisi ilə işləyən obyektlərdə təhlükəsizlik qaydalarının pozulması nəticəsində radioaktiv şüalanma və radioaktiv çirklənmə baş verir. Havada radiasiya olduqda radioaktiv maddələr orqanizmdə sürətlə toplanır. Bu zaman orqanların funksiyaları pozularaq (ən çox sümük iliyi, sinir sistemi və s.) müxtəlif irsi və hətta ölümlə nəticələnə bilən xəstəliklər yaradır.

* Nağıllarda təsvir olunan və çıraqdan çıxan cin nəzərdə tutulur.

Bəs radioaktiv çirklənmə zamanı nə etməli?

- ***Əgər siz küçədəsinizsə, təcili surətdə tənəffüs orqanlarınızı mühafizə edin – burnunuzu və ağzınızı şərf və ya nəm dəsmalla qapayın;***
- ***Təcili surətdə evə gəlin, üst paltarlarınızı çıxarın və duş qəbul edin. Bütün pəncərə və qapıları mümkün olduqca kip qapayın;***
- ***Bir stəkan suya 3-5 damcı yod məhlulu damızdırıb (uşaqlara 1-2 damcı) için;***
- ***Küçəyə az çıxın. Bu vacib olduqda isə respiratorlardan və uyğun geyimlərdən (kip gödəkcə, plaş, altı hündür ayaqqabı) istifadə edin;***
- ***Yemək hazırlamaq üçün lazım olan suyu yalnız su boruları və qorunan quyulardan götürmək olar;***
- ***Ərzaqlar soyuducularda, şkaflar və emallı qablarda, polietilen kisələrdə olduqda istifadəyə yararlı hesab olunur.***

Atom elektrik stansiyalarında baş verən kiçik qəzalar belə mütəxəssisləri, əhalini narahat edir. Belə qəzalar zamanı yanğınlar da baş verir. Bu isə öz növbəsində, bəzi maddələrin ətrafdakı meyvə və tərəvəzə hopması ilə yoluxma mənbəyinə çevrilir. Nəticədə bitki və heyvanlar məhv olurlar.

Yanğın. İri mağazalarda, kinoteatrlarda və digər ictimai yerlərdə baş verən yanğın evdəkindən çox fərqlidir. İlk növbədə, bu yanğın-

Statistik məlumatlara görə, XX əsrin son 20 ili ərzində dünyada ümumilikdə 800 milyondan artıq insan müxtəlif fəlakətlərdən zərər çəkmiş, 140 min insan tələf olmuş, illik maddi zərər isə 100 milyard dollardan artıq vəsait təşkil etmişdir.

lardan daha çox insanlar zərər çəkir. Buna görə də aşağıdakı qaydalara əməl etməyiniz vacibdir:

Bəs radioaktiv çirklənmə zamanı nə etməli?

- *Tələşə düşməyin;*
- *Yanan otağı tez tərk edin;*
- *Burnunuzu və ağzınızı nəm parça ilə bağlayın;*
- *Paltarı yanan insanı qaçmağa qoymayın, paltarını soyunmağa kömək edin və ya üzərinə sintetik olmayan istənilən hər hansı bir örtüyü atın;*
- *İctimai yerlərdə yanğınsöndürən cihazlar varsa, onlardan istifadə etməyə çalışın.*

Sual və tapşırıqlar:

1. Radioaktiv çirklənmə və epidemiyalar zamanı lazım olan davranış qaydalarını bir-biri ilə müqayisə edin.
2. "Məktəbdə yanğın və yanğınsöndürənlər" mövzusunda səhnəcik hazırlayın.
3. Nəyə görə radioaktiv çirklənmə zamanı açıqda qalan ərzaqlardan istifadə etmək olmaz?
4. Yol qəzaları zamanı hansı davranış qaydalarına riayət olunmalıdır? Müəyyənləşdirin.
5. Otağınızda yanğın təhlükəsi törədə biləcək mənbələr hansılardır və yanğın baş verərsə, necə davranarsınız?
6. Verilənlərdən ən çox təhlükəli olanları seçin:

Kibrit stolun üstünə atılıb;	*Paltar qaz plitəsinin üstündə qurudulur;*
Külqabı dolub;	*Yolkada işıqlar yanır;*
Ütü stolu yığışdırılmayıb;	*Ütü xəttə qoşulub;*
Elektrik naqili xalçanın altındadır;	*Elektrik naqili su kranına yaxındır.*

7. Nə üçün radioaktiv çirklənmə zamanı altı qalın ayaqqabı geyinmək tövsiyə olunur? İzah edin.
8. Çoxmərtəbəli binanın axırıncı mərtəbəsində yanğın baş verərsə, əməl ediləcək qaydaların siyahısını dəftərinizdə yazın.

23. Yol nişanlarına diqqət edək

Gördüyünüz yol nişanları nəyi ifadə edir və siz bunları necə qruplaşdıra bilərsiniz?

Qədimdə nəqliyyat vasitələrində dartıcı qüvvə olaraq, əsasən, at və ya mal-qaradan istifadə olunurdu. Lakin elm və texnika inkişaf etdi və avtomobil meydana gəldi. Bununla da yollarda hərəkət sürəti artdı. Yollarda sürət artdığından sürücülərə qarşıdakı yol haqqında məlumat verəcək yol nişanlarına ehtiyac yarandı. Beləliklə də, dünyada ilk yol nişanları XIX əsrin sonlarında, ilk avtomobillərlə birlikdə yarandı.

Əvvəllər hər bir ölkənin öz yol nişanları var idi. Beynəlxalq avtomobil yolları inkişaf etdikcə yol nişanlarının bütün sürücülər tərəfindən başa düşülməsi zərurəti yarandı. Beləliklə də, 1968-ci ildə Vyanada yol hərəkəti haqqında Beynəlxalq Konvensiya qəbul edildi. 1997-ci ildən ölkəmiz də bu Konvensiyaya qoşulmuşdur.

Sürücülərin zəruri tədbirləri vaxtında həyata keçirə bilməsi üçün yol nişanlarını bilmələri olduqca vacibdir. Onların yol nişanlarının mənasını bilməməsi yol qəza hadisələrinin yaranmasına səbəb olur. Bundan da ən çox əziyyət çəkən piyadalardır.



İlk çarxlı nəqliyyat vasitələri

Yol nişanları aşağıdakı kimi qruplaşdırılır:

Xəbərdarlıq nişanları
Məcburi hərəkət istiqaməti nişanları
Məlumatverici-göstərici nişanlar
Əlavə məlumat nişanları (lövhəcikləri)
Üstünlük nişanları
Servis nişanları
Qadağan nişanları
Nəqliyyat vasitələrinin tanınma nişanları

Xəbərdarlıq nişanları – bu nişanlar sürücülərə və piyadalara yolların təhlükəli sahələri haqqında xəbərdarlıq edir. Sürücü bu nişanları görərkən daha diqqətli olmalı və hərəkət sürətini azaltmalıdır. Xəbərdarlıq nişanlarının əksəriyyəti qırmızı haşiyəsi və ağ fonu olan üçbucaq formasındadır.

İkitərəfli hərəkət

Piyada keçidi

Velosiped zolağı ilə kəsişmə

Uşaqlar

Alçaqdan uçan təyyarələr

Yol işləri

Təhlükəli döngələr

Digər təhlükələr

Üstünlük nişanları – yolayrıcılarını, yolun hərəkət hissəsinin kəsişmələrini göstərir. Üstünlük nişanlarının vahid forma və rəngi yoxdur.

Dayanmadan keçmək qadağandır

Yol verin

Baş yol



Baş yolun sonu

Qadağan nişanları – qırmızı rənglə haşiyələnmiş dairə formasındadır. Bu nişanlar yollarda, yaxud onların ayrı-ayrı sahələrində nəqliyyat vasitələrinin və piyadaların hərəkətini məhdudlaşdırır və ya qadağan edir.

Dayanmaq qadağandır

Durmaq qadağandır

Geriyə dönmək qadağandır

Giriş qadağandır

Məcburi hərəkət istiqaməti nişanları – sürücülərə nəqliyyat vasitələrinin hərəkətinin icazə verilmiş istiqamətini, sürətini, piyadalar üçün nəzərdə tutulan yolları göstərir. Bu nişanların dairəvi forması və mavi fonu vardır.

Sağa hərəkət

Düzünə hərəkət

Sola hərəkət

Dairəvi hərəkət

Məlumatverici-göstərici nişanlar – yaşayış məntəqələrinin və başqa obyektlərin yerləşməsi barədə məlumat verir. Bu nişanlar düzbucaqlı formasındadır. Yaşayış məntəqələrinin adları, yolun vəziyyəti, yolboyu obyektlərin yerləşməsi və s. barədə məlumatlar bu nişanlar vasitəsilə verilir.

Yaşıl fon avtomagistral, göy fon başqa avtomobil yolları, ağ fon yaşayış məntəqəsi əlaməti deməkdir.

Birtərəfli yolun qurtaracağı

Yeraltı piyada keçidi



Zolağın başlanğıcı



Zolaqlarla hərəkət istiqaməti

Servis nişanları – uzaq səfərə çıxanlara müvafiq obyektlərin yerləşməsi haqqında məlumat verir. Bu nişanlar düzbucaqlı formasında olub enli mavi haşiyəyə malikdir.

Avtobusun dayanacaq yeri

Avtomobillərin yuyulma məntəqəsi

İçməli su

Restoran

İlk tibbi yardım məntəqəsi

Telefon

Xəstəxana

Yanacaqdoldurma məntəqəsi

Əlavə məlumat nişanları – birlikdə qoyulduğu digər qrupların nişanlarını dəqiqləşdirmək və ya məhdudlaşdırmaq üçün istifadə olunur. Hərəkətin daha rahat təşkilinə imkan yaradır.

Nəqliyyat vasitəsinin növü

Nəqliyyat vasitələrinin duracağa qoyulma üsulu

Obyektə qədər məsafə

Nəqliyyat vasitələrinin tanınma nişanları – adından da göründüyü kimi, nəqliyyat vasitələrini tanımağa xidmət edir.

Qrupla uşaq aparan nəqliyyat vasitəsinin tanınma nişanı

Təlim nəqliyyatı

Təhlükəli yük aparan avtomobillərin nişanı

Yol hərəkəti nişanlarını tanısaq və fərqləndirsək, yollarda baş verən qəzaların sayını azaltmış olarıq.

Sual və tapşırıqlar:

1. Yol nişanları nə üçündür?
2. Yol nişanları hansı qruplara bölünür?
3. Qadağan nişanları nə üçündür?
4. Məlumatverici-göstərici nişanlar nə üçündür?
5. Aşağıdakı cədvələ müvafiq nişanları çəkin.

Xəbərdarlıq nişanları	Məlumatverici-göstərici nişanlar	Servis nişanları	Qadağan nişanları	Üstünlük nişanları

6. Yol-hərəkət qaydalarına aid səhnəcik hazırlayın.

7. Bu nişan sürücülərə nə barədə məlumat verir? Bu nişan olmazsa, nə baş verər?

8. Sürücü bu nişanı gördükdə avtomobilin sürətini azaldır. Bunun səbəbini izah edin.

9. Maşın sürətlə gedərkən sürücü hansı nişanı görüb sürəti azaltmasa, daha çox təhlükəli vəziyyət yaranar?

Buraxılış məlumatı

HƏYAT BİLGİSİ 6

Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Həyat bilgisi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər: **Məmmədova Nüşabə Əsəd qızı**
Mahmudova Könül Faiq qızı

Buraxılışa məsul **Sevil İsmayılova**
Baş redaktor **Ülkər Məmmədova**
Dizayner **Elşən Qurbanov**
Səhifələyici **Kübra Bədəlova**
Texniki redaktor **Fəridə Səmədova**
Korrektor **Nübar Qarayeva**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Eldar Əliyev**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:
2017-045

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 5,5. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 88. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 18113. Pulsuz. Bakı – 2018.

“Şərq-Qərb” ASC
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!